UNITED NATIONS
AZERBAIJAN

# BMT-nin ölkə üzrə illik hesabatı 2022



# MÜNDƏRİCAT


REZİDENT ƏLAQƏLƏNDİRİCİNİN ÖN SÖZÜ 3

BMT-NİN ÖLKƏ ÜZRƏ İDARƏ HEYƏTİ 4

BMT-NİN ÖLKƏDƏ ƏSAS İNKİŞAF TƏRƏFDAŞLARI 4

FƏSİL 1: ÖLKƏDƏ BAŞ VERƏN ƏSAS HADİSƏLƏR VƏ REGİONAL KONTEKST 5

FƏSİL 2: BMT-NİN ƏMƏKDAŞLIĞA DAİR ÇƏRÇİVƏ SƏNƏDİ VASİTƏSİLƏ MİLLİ İNKİŞAF PRİORİTETLƏRİNƏ DƏSTƏK 6

2.1. Əməkdaşlıq çərçivəsinə aid nəticələrin xülasəsi 6
2.2. Əməkdaşlıq çərçivəsinin prioritetləri, nəticələri və məhsulları 8
2.3. Tərəfdaşlığa dəstək və 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi 23
2.4. BMT-nin birlikdə daha çox və daha yaxşı çalışaraq əldə etdiyi nəticələr: BMT-nin aktuallığı, effektivliyi və səmərəliliyi 24
2.5. Maliyyə məsələlərinin xülasəsi və resursların səfərbər olunması 25

FƏSİL 3: BMT-NİN 2023-CÜ İL ÜÇÜN PRİORİTETLƏRİ 27




Qaçqın uşaqlar onlar üçün təşkil olunmuş bayram şənliyi zamanı Şaxta babaya yeni il arzularını yazırlar BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı / 2022

Üz qabığı fotosu: Ürək-ağciyər reanimasiyasının əhəmiyyəti və həyatı xilas etmək üçün onun düzgün yerinə yetirilməsinə həsr olunmuş fləşmobun iştirakçısı Ümumdünya Səhiyyə Təşkilatı/Alex Asgerzadeh/2022



# ÖN SÖZ

Əziz dostlar,

2022-ci il xüsusi il oldu. Biz Azərbaycanın BMT-yə üzv olmasının 30-cu ildönümünü qeyd etdik. Üç onillik ərzində Azərbaycanla münasibətlər yardıma əsaslanan əməkdaşlıqdan tərəfdaşlığa əsaslanan əməkdaşlığa çevrilib. Sərgilər, üç min ağacın əkilməsi, DİM-lərə həsr olunmuş televiziya proqramları, sosial media kampaniyaları, xeyriyyə bazarları və gənclərlə aparılan müzakirələr vasitəsilə bu münasibətlərin səhifələrini vərəqlədik.

İndi isə ölkə yeni hekayəsini yazır. Bu, həm COVID-19, həm də münaqişənin fəsadlarını aradan qaldırmaqla ölkəni irəli aparmaq üçün bütün imkanlarını səfərbər etmiş Azərbaycan xalqının hekayəsidir.

2022-ci ildə biz beş sütuna - inklüziv artım və layiqli əmək, səmərəli ictimai və sosial xidmətlər, məlumat və siyasətlərin təhlili, iqlim fəaliyyəti və gender bərabərliyinə diqqət yetirməklə milli inkişaf prioritetlərini və DİM-ləri dəstəkləmək üçün Hökumət və digər tərəfdaşlarla işi davam etdirdik. Bunlar hamısı bir-birinə bağlıdır və Azərbaycanda firavanlıq və sülhün nail olunması kimi ümumi məqsədə öz töhfəsini verir. Bütün bu işlərin mərkəzində Azərbaycan xalqı, xüsusilə də qadınlar, gənclər, yaşlı insanlar, əlilliyi olan şəxslər, məcburi köçkünlər, qaçqınlar, miqrantlar və insan alverinin qurbanları dayanıb.

DİM-lərin sürətləndirilməsi gündəliyinə dəstək olmaq üçün 2022-ci ildə biz Hökumətlə birlikdə Yaşıl Transformasiyaya yönəlmiş ilk DİM Dialoqu ilə çoxtərəfli yüksək səviyyəli siyasətlər üzrə DİM Dialoqu silsilə tədbirlərini başladıq. Biz həmçinin maraqlı tərəflərin iştirakı ilə Azərbaycanla bağlı DİM məlumatlarının mövcudluğu və DİM-lə əlaqədar irəliləyişdəki boşluqlara həsr olunmuş məsləhətləşmələrə start verdik. Dayanıqlı maliyyələşdirmə gündəliyi inkişaf maliyyəsi, DİM Sərmayəçi Xəritəsi və İnvestisiya Ekosistemi üzrə aparılmış tədqiqatlardan faydalanıb. 2022-ci ildə, BMT-nin Qlobal Sazişinə 14 yeni üzv qoşulub, Qadınların Səlahiyyətləndirilməsi Prinsiplərini isə 10 yeni şirkət imzalayıb.

Ərazilərin minalardan təmizlənməsi, bacarıqların inkişafı, habelə məcburi köçkünlərə və geri qayıtmış məcburi köçkünlərə daha yaxşı gəlir imkanlarının yaradılması da daxil olmaqla münaqişədən sonrakı bərpa prosesinə dəstəyimiz 2022-ci ildə də davam edib. Ölkədə mina fəaliyyəti imkanları genişləndirlib, mina riski ilə bağlı maarifləndirmə işləri isə 40,000-dən çox uşağı əhatə edib. Münaqişənin təsirinə məruz qalmış ərazilərdə 9,000-dən çox insan tibbi yardımdan faydalanıb, 1,500 nəfərə isə həyati əhəmiyyət kəsb edən humanitar yardım göstərilib. 2022-ci ilin mart ayında Aİ, BMT və DB-nin Bərpa Ehtiyaclarının Birgə Qiymətləndirilməsi üzrə müşahidə missiyasından sonra biz münaqişədən zərər çəkmiş ərazilərdə Hökumətin həyata keçirdiyi və insanların ehtiyaclarına köklənmiş çoxsektorlu bərpa işlərinə dəstəyin daha da genişləndirilməsi yollarını araşdırırıq. Biz, həmçinin, COVID pandemiyasının fəsadlarının aradan qaldırılması istiqamətində də geniş fəaliyyətimizi davam etdirmişik. Bizim dəstəyimizlə 900 məktəbliyə təhsilin bərpası üzrə köməklik göstərilib, 3,000-ə yaxın tibb işçisi təlimlərdə iştirak edib, ölkəyə lazımi avadanlıqlar gətirilib, peyvəndlə bağlı təxminən 275 min insanı əhatə edən maarifləndirici kampaniyalar keçirilib və infeksiyanın qarşısının alınması və nəzarəti üzrə milli təlimatlar hazırlanıb.

Kiçik və orta biznes və kənd dəyər zəncirlərinə ünvanlı dəstək vasitəsilə BMT iş yerlərinin yaradılması və əmək bazarında vəziyyətin yaxşılaşdırılmasını təşviq edib. Nəticədə, 287 yeni kiçik biznes yaradılıb və 1,400-dən çox gənc bacarıqların artırılması sessiyalarında iştirak edib. Ölkənin keyfiyyətli təhsil, səhiyyə xidmətləri və sosial müdafiəni, habelə ədliyyə xidmətlərinə çıxışı təmin etmək səyləri də dəstəklənib: 35,000 uşaq və 9,000-dən çox hamilə qadın ev ziyarətləri xidmətindən yararlanıb, 371 qaçqın və sığınacaq axtaran, habelə əlilliyi olan 205 uşaq təhsil almaq imkanı əldə edib, inklüziv məktəblərin sayı isə 12-dən 22-yə yüksəlib. BMT-nin dəstəyi ilə 4,500 nəfər ödənişsiz hüquqi yardım alıb.

İqlim fəaliyyəti və ətraf mühitlə bağlı fəaliyyətlərə gəlincə, biz Ətraf Mühit üzrə Fəaliyyətin üçüncü İcmalı, iqlim dəyişikliyinə uyğunlaşma siyasətlərinin hərtərəfli hüquqi təhlili və sahilyanı ərazilər, su, kənd təsərrüfatı və dayanıqlı bioenerji həlləri ilə bağlı analitik sənədlərin dərc olunmasına kömək etmişik. Çəyirtkələrin monitorinqi və idarə olunması və pestisidlərin təsirinin azaldılması, eləcə də insan sağlamlığı və ətraf mühitin qorunması üçün qida məhsullarına nəzarət və təhlükəsizlik mexanizmləri üzrə milli potensial yaradılıb.

Gender bərabərliyi sahəsində irəliləyiş əldə etmək üçün biz "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyanın tövsiyələrinin icrasını dəstəkləmişik. Bu işdə əsas diqqəti yönləndirmə üsullarının tətbiqinə, eləcə də zorakılığa məruz qalanlara hüquqi, psixoloji və sosial dəstək verməklə gender əsaslı zorakılığa qarşı cavab tədbirlərinə yetirmişik. Qız uşağının dəyərinin təşviqi, habelə elm, texnologiya, mühəndislik və riyaziyyat (STEM) sahələrində gənc qızlar və qadınlar üçün bacarıqların yaradılması ilə bağlı məqsədyönlü vəkillik fəaliyyəti və kampaniyalar 2022-ci ildə də əsas diqqət mərkəzimizdə olub. Məşğulluqda və peşələrdə ayrı-seçkiliyin qarşısını almaq üçün Azərbaycan Əmək Məcəlləsinə texniki baxış keçirilib. Nəticədə, Parlament qadınlar üçün qadağan olunmuş peşələrin sayını 674-dən 204-ə qədər azaldıb. Bloqerlər, rəssamlar, film yaradıcıları, psixoloqlar və sosioloqlar da daxil olduğu tərəfdaşlar koalisiyası ilə birlikdə Azərbaycanın 16 rayonunda 2,700-ə yaxın insanı əhatə edən Gender zorakılığına qarşı 16 günlük əhəmiyyətli kampaniya keçirilib.

Bu hesabat 2022-ci ildə gördüyümüz işləri daha ətraflı təsvir edir. BMT ailəsi olaraq, tərəfdaşlarımızla birlikdə daha dinc və firavan Azərbaycanın qurulması istiqamətində fəaliyyətləri davam etdirmək niyyətindəyik.

**Vladanka Andreeva**
BMT-nin Azərbaycandakı Rezident əlaqələndiricisi

# BMT-NİN ÖLKƏ ÜZRƏ İDARƏ HEYƏTİ

# BMT-NİN ÖLKƏDƏ ƏSAS İNKİŞAF TƏRƏFDAŞLARI

2022-ci ildə BMT ölkədə dayanıqlı inkişafı və insan haqlarını təşviq etmək üçün müxtəlif maraqlı tərəflərlə, o cümlədən dövlət qurumları, vətəndaş cəmiyyəti təşkilatları, beynəlxalq təşkilatlar, özəl sektor, akademik dairələr və sosial media influenserləri ilə əməkdaşlıq edib.

Azərbaycan hökuməti 2022-ci ildə BMT-nin əsas tərəfdaşı olub və əsas diqqəti siyasətlərin formalaşmasına yetirən inkişaf təşəbbüslərini həyata keçirmək üçün maliyyə, insan və inzibati resursları təmin edib.

Vətəndaş cəmiyyəti təşkilatları (VCT) isə inkişaf, insan haqları, gender bərabərliyi və vətəndaş iştirakını təşviq etmək üçün BMT-nin əsas tərəfdaşı olub.

Özəl sektor iş yerlərinin yaradılması, gəlirin əldə edilməsi və innovasiyaların təşviqində mühüm rol oynadığına görə, BMT dayanıqlı iqtisadi inkişafı və məsuliyyətli biznes təcrübələrini təşviq etmək üçün 2022-ci ildə özəl sektorla geniş əməkdaşlıq edib.

BMT-nin akademik dairələrlə işləməsi siyasətlərin hazırlanması prosesini lazımi məlumatlarla təmin etmək üçün aparılan tədqiqat və təhlilləri təkmilləşdirib, habelə təlim, mentorluq və tanışlıq şəbəkəsinin genişləndirilməsi imkanları ilə gənclər və mütəxəssislərin bacarıqlarını artırıb.

Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq kampaniyası zamanı da daxil olmaqla BMT-nin sosial media influenserləri ilə əməkdaşlığı, ictimaiyyətin sosial və inkişaf məsələləri ilə bağlı maarifləndirilməsi və fəallaşmasına kömək edib.

Töhfə verən tərəfdaşlar, BMT qurumları və icraçı qurumların əlaqələndirilməsi. UNINFO.ORG saytında daim yenilənən qrafikə baxın




Töhfə verən tərəfdaşlar

| | |
|---|---|
| BMT | Lukoil |
| Azərbaycan | Niderland |
| Avropa İttifaqı | Norveç |
| Qlobal Ekologiya Fondu | Sloveniya |
| Yaşıl İqlim Fondu | Türkiyə |
| Yaponiya | Böyük Britaniya |
| Koreya | Amerika Birləşmiş Ştatları |

# 1 ÖLKƏDƏ BAŞ VERƏN ƏSAS HADİSƏLƏR VƏ REGİONAL KONTEKST

## Milli siyasətlər və 2030-cu il gündəliyi

2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti iki mühüm siyasət sənədini təsdiq edib: *"Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf Strategiyası (2022-2026)" və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə böyük qayıdışa dair Dövlət Proqramı (2022-2026)".*

Bu sənədlər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də müəyyən edilmiş baxışın icrasını istiqamətləndirir və Hökumətin 2030-cu il Gündəliyi və Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) möhkəm sadiqliyini əks etdirir. Sosial-iqtisadi inkişaf Strategiyası beş milli prioriteti müəyyən edir:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl inkişaf" ölkəsi.

Strategiyanın həyata keçirilməsi üçün ümumilikdə 32,7 milyard manat (19,2 milyard ABŞ dolları) vəsaitin tələb olunacağı gözlənilir. Bunun da 58,7 faizi böyük qayıdışa dair Dövlət Proqramının icrasına yönələcəyi nəzərdən keçirilir.

## İqtisadi xülasə

2022-ci ildə iqtisadiyyat 4,6 faiz artıb. 2021-ci illə müqayisədə enerji sektoru 2,7 faiz azaldığı halda, qeyri-enerji sektorları 9,1 faiz yüksəlib. Artımın əsas amilləri arasında turizm, otel işi, ictimai iaşə, nəqliyyat, anbar təsərrüfatı, informasiya, rabitə və tikinti olub.

Ukraynadakı müharibə Azərbaycanın ticarətinə ciddi təsir göstərməyib. Qlobal enerji qiymətlərinin yüksəlməsi xarici gəlirləri və ölkənin valyuta və fiskal ehtiyatlarını artırıb.

Ölkəyə daxil olan pul köçürmələri əhəmiyyətli dərəcədə artıb: 2022-ci ilin artıq üçüncü rübündə əvvəlki bütöv illə müqayisədə 2,5 dəfəlik artım qeydə alınıb. Bununla belə, ərzaq idxalından asılılıq, artan qlobal əmtəə qiymətləri və tədarük zəncirinin pozulması ölkədə qiymətlərin artmasına səbəb olub və nəticədə 2022 ildə ümumi illik inflyasiya 13,9 faiz, o cümlədən ərzaq məhsulları üzrə 19,5 faiz təşkil edib.

1 yanvar 2023-cü il tarixindən etibarən hökumət yüksək qiymətlərin həssas qruplara təsirini azaltmaq üçün minimum əmək haqqı, pensiyalar və yaşayış minimumunun artırılması da daxil olmaqla bir sıra fiskal siyasət tədbirləri tətbiq edib. ÜDM artımına və möhkəm fiskal ehtiyatlara baxmayaraq, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) keçid keyfiyyəti hesabatında qeyd edildiyi kimi, Azərbaycanın iqtisadi keçid göstəricisi, xüsusilə də dayanıqlılıq və rəqabət qabiliyyəti baxımından regional orta göstəricidən geri qalır.

## Struktur islahatlar

2022-ci ilin aprelində Prezident hökumətin fəaliyyətində şəffaflığın artırılması, korrupsiyanın qarşısının alınması və ictimai hesabatlılığın gücləndirilməsi məqsədilə daşıyan 2022-2026-cı illər üçün Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair Milli Fəaliyyət Planını təsdiq edib. Paralel olaraq, hakimiyyət vətəndaşların qərar qəbuletmə prosesində elektron iştirakını təşviq etmək üçün yeni portallar istifadəyə verib.

Maliyyə inklüzivliyi də gücləndirilib. 2022-ci ilin mart ayında Azərbaycanın Mərkəzi Bankı bank filiallarının az olduğu ərazilərdə insanların maliyyə xidmətlərinə daha yaxşı çıxışını təmin etmək üçün üçüncü tərəflərin bank məhsulları və xidmətlərini göstərməsinə icazə verib.

2022-ci ilin iyununda kapital bazarlarında əlverişli vergi rejiminin formalaşdırılması məqsədilə vergi məcəlləsinə edilən dəyişikliklər qüvvəyə minib. 2023-cü ilin fevral ayından etibarən tənzimlənən bazarda satılan səhm və istiqrazlar üzrə ödənilən divident və faiz gəlirləri beş il müddətinə gəlir vergisindən azad edilir.

2022-ci ilin əvvəlində 240 MVt gücündə külək elektrik stansiyası və 230 MVt gücündə günəş elektrik stansiyasının tikintisinə başlanıb. Bu, COP26-da götürülən öhdəliklərə uyğun olaraq, ölkədə bərpa olunan enerjidən istifadənin artırılması istiqamətində mühüm addım sayılır.

## Münaqişədən sonra bərpa

Ərazilərin minalardan təmizlənməsi, yenidən qurulması və məcburi köçkünlərin (MK) qaytarılması 2020-ci ildən bəri Azərbaycanın əsas prioritetləri sırasındadır. Münaqişədən təsirlənmiş rayonların kompleks bərpası və reabilitasiyası məqsədilə hökumət bir sıra institusional mexanizmlərin yaradılması, torpaqdan geniş istifadənin planlaşdırılması, infrastrukturun yenidən qurulması, eləcə də məcburi köçkünlər və biznes sektoru ilə əməkdaşlığa dair təşəbbüs göstərib.

## DİM-lərə doğru milli tərəqqi

2022-ci ildə Azərbaycan "DİM İndeksi"ndə 100 baldan 73,5 bal toplayaraq 163 ölkə arasında 50-ci yerə yüksəlib (2021-ci ildə 55-ci olmuşdu). Bununla da Azərbaycan Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional orta göstəricidən (71,6 bal) daha yüksək göstəriciyə nail olub.

Azərbaycan yoxsulluq, qidalanma, təhsil, təmiz su, dayanıqlı şəhərlər və icmalarla bağlı DİM-lərdə irəliləyiş əldə edib. Bununla belə, hesabatda səhiyyə, su, bərpa olunan enerji, tədqiqat və inkişaf kimi sahələrdə problemlərin olduğu vurğulanıb.

## İnsan inkişafı indeksi

Azərbaycan 2021-ci il üçün İnsan İnkişafı İndeksində (iii) 0,745 bal toplayaraq 191 ölkə və ərazi arasında 91-ci olub. Lakin, bərabərsizliyə görə düzəlişlər edildikdə, indeksdəki göstərici 0,685-ə düşüb. Reproduktiv sağlamlıq, səlahiyyətlərin genişləndirilməsi və əmək sahəsində gender bərabərsizliyini ölçən Gender Bərabərsizliyi İndeksində isə ölkə 0,294 balla 170 dövlət arasında 70-ci olub.

## Makroiqtisadi göstəricilər

| | |
|---|---|
| **Adambaşına düşən ÜDM (2021)** | 5,388 ABŞ dolları |
| **Büdcə Xərcləri (2021)** | 23.1 % sosial müdafiə; 4.6 % səhiyyə; 10.7 % təhsil |
| **İşsizlik dərəcəsi (2021)** | 6 % (cəmi), 7 % (qadınlar), 4.9 % (kişilər) |
| **İşçi qüvvəsində iştirak nisbəti (15-64) (2019)** | 72 % (cəmi): 75% (kişilər) və 70% (qadınlar) |

## Demoqrafik və sosial göstəricilər

| | |
|---|---|
| **Əhali (1 yanvar 2023)** | 10,127,145 |
| **Gözlənilən ömür uzunluğu (2020)** | 67 |
| **Yoxsulluq dərəcəsi (ölkə üzrə)(2021)** | 5.9% |
| **Ana ölümü nisbəti (2021)** | 17.8% |
| **Körpə ölümü nisbəti (1,000 diri doğulanlar üzrə) (2021)** | 17 |
| **Təhsilə qəbul (% ümumi) (2021)** | 46% məktəbəqədər; 94 % kiçik və orta siniflər; 38% ali |
| **Rəhbər vəzifələrdə qadınların faizi (2021)** | 36.2 % |

## Seçilmiş qlobal reytinqlər

| | |
|---|---|
| **Qanunun aliliyi indeksi (2022)** | Bal: 39.4<br>Qlobal reytinq: 103/150 |
| **İnsan inkişafı indeksi (2021)** | Bal: 0.745<br>Qlobal reytinq: 91/190 |
| **İqtisadi azadlıq indeksi (2023)** | Bal: 61.4<br>Qlobal reytinq: 75/176<br>Regional reytinq: 37/44 |
| **DİM indeksi (2022)** | Bal: 73.5<br>Qlobal reytinq: 50/163 |
| **Qlobal gender fərqi indeksi (2022)** | Bal: 0.69<br>Qlobal reytinq: 101/146 |
| **Ekoloji effektivlik indeksi (2022)** | Bal: 38.6<br>Qlobal reytinq: 104/180 |



2 mart 2022-ci il tarixində BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva və xarici işlər nazirinin müavini Elnur Məmmədov şəhər bulvarında BMT-Azərbaycan tərəfdaşlığının 30-cu ildönümünə həsr olunmuş fotosərginin açılışı mərasimində
BMT-nin İnformasiya Mərkəzi/2022

# 2 | BMT-NİN ƏMƏKDAŞLIĞA DAİR ÇƏRÇİVƏ SƏNƏDİ VASİTƏSİLƏ MİLLİ İNKİŞAF PRİORİTETLƏRİNƏ DƏSTƏK

## 2.1. Əməkdaşlıq çərçivəsinə aid nəticələrin xülasəsi

BMT-nin Azərbaycandakı nümayəndəliyi hökumətin milli inkişaf prioritetləri və Dayanıqlı İnkişaf Məqsədləri üzrə səylərini dəstəkləmək üçün bütün sektorlarda tərəfdaşlarla işləyir.

Bu işlər iqtisadi artım, ictimai xidmətlər, iqlim fəaliyyəti, səhiyyə, gender bərabərliyi, məlumat və siyasətlərin təhlili kimi müxtəlif sahələri əhatə edir. Əslində, bütün bu sahələr bir-biri ilə bağlıdır və çiçəklənən və sülhsevər Azərbaycanın hədəflərinə xidmət edir.

Aşağıda BMT-nin Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə əldə edilmiş bəzi mühüm nəticələrin xülasəsi verilib. Bu xülasədən sonra bu sahələrin hər birində görülən işlərin ətraflı təsviri göstərilib.

**Münaqişədən sonra bərpa**: BMT 2021-2024-cü illər ərzində ərazilərin minalardan təmizlənməsi üçün 12 milyon dollar ayırmaqla münaqişədən sonrakı bərpa prosesində Azərbaycanı dəstəkləyir. 2022-ci ildə BMT Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə məlumatların idarə olunması sahəsində dəstək verib; 40,000-dən çox uşağı mina riskinə dair məlumatlandırıb; mina təhlükəsizliyinə dair 200,000 tədris vəsaiti paylayıb; və 99 kənddə təxminən 1,300 km$^2$ sahədə minalarla bağlı tədqiqat işləri aparıb. Münaqişədən sonra bərpaya dair digər işlər nəticəsində BMT 2,000 məktəb müəllimi və 200 məktəb psixoloqu üçün uşaqların sosial və emosional öyrənmə bacarıqları üzrə təlimləri və münaqişənin təsirinə məruz qalmış ərazilərdə yaşayan 9,000-dən çox insana tibbi xidmətin göstərilməsini dəstəkləyib.

Aşağıdakı xəritədə hər coğrafi ərazi üzrə fəaliyyətlərin sayı göstərilir. UNINFO.ORG saytına daxil olaraq xəritə ilə daha yaxından tanış olun və müxtəlif fəaliyyətlərin ümumi təsvirini əldə edin.

2022-ci ildə BMT-nin fəaliyyətləri ölkə üzrə 176-ya çatıb.



## NƏTİCƏ 1.1

### İnklüziv artım və layiqli əmək

2022-ci ildə BMT mikro, kiçik və orta sahibkarlıq subyektlərini (MKOS), o cümlədən 300-ə yaxın (83%-nə qadınlar rəhbərlik edir) yeni kiçik biznesin yaradılmasını; 1,000 qadını bir araya gətirərək, bir-birinə dəstək olmasına və öyrənməsinə şərait yaradan Qadın Resurs Mərkəzlərinin fəaliyyətini; 1,400 gənc üçün bacarıqların artırılması sessiyalarının keçirilməsini; onlayn məşğulluq platformasının ərsəyə gəlməsini; 46,000-dən çox insanı əhatə edən peşə hazırlığı kampaniyasının həyata keçirilməsini; 250 qadına kənd təsərrüfatı avadanlığının çatdırılmasını; yerli qida istehsalçıları və alıcılar arasında 12 tədarük müqaviləsinin imzalanmasını; habelə layiqli əmək və maliyyə inklüzivliyini təşviq etmək üçün dövlət siyasəti üzrə texniki təlimatın hazırlanmasını dəstəkləyib.

BMT DİM-lərə necə töhfə verir: bu qrafik təsvir hər bir DİM məqsədinə 2022-ci ildə yönəlmiş büdcəni göstərir




## NƏTİCƏ 2.1

### Sosial müdafiə, keyfiyyətli dövlət və sosial xidmətlər

BMT keyfiyyətli təhsil, səhiyyə xidmətləri, sosial müdafiə, ədliyyə xidmətlərinə çıxış, səmərəli idarəetmə və digər xidmətlərin göstərilməsində Azərbaycanın səylərini dəstəkləyib. 2022-ci ildə BMT COVID-19-la bağlı bir çox fəaliyyətləri həyata keçirib. Bunlar arasında 900-ə yaxın tələbəyə təhsilin bərpası üzrə göstərilən köməkliyi, 400-ə yaxın qaçqın və sığınacaq axtaran uşaq üçün vəkillik və məsləhət xidmətlərini; 100 xəstəxana inzibatçısı üçün infeksiyaların qarşısının alınması və onlara nəzarət tədbirləri üzrə keçirilən təlimi; COVID-19-un uzunmüddətli təsirlərinin müalicəsi üzrə 250 tibb işçisinə verilən məsləhətləri; Hökumətə 260 informasiya texnologiyaları qurğusunun, eləcə də 6,000 ədəd soyuq zəncir avadanlığının çatdırılmasını; immunizasiya xidmətinin gücləndirilməsi üzrə milli təlimatın hazırlanmasını; 275,000 nəfəri əhatə edən maarifləndirici kampaniyaları qeyd edə bilərik. Keyfiyyətli və inklüziv səhiyyə xidmətləri sahəsində 2022-ci ildə BMT fövqəladə halların idarə edilməsi sistemi üzrə yol xəritəsinin yaradılmasını, 500-dən çox psixoloji məsləhət sessiyasının keçirilməsini; münaqişələrdən zərər çəkmiş ərazilərdə psixoloji sağlamlıqla bağlı 84 həkimin təlimləndirilməsini; psixoloji sağlamlığa dair özünə kömək veb-saytının istifadəyə verilməsini; 35,000-dən çox uşaq və 9,000 hamilə qadını əhatə edən tibb bacılarının ev ziyarəti modelini; 16 doğum şöbəsində 380 tibb işçisi üçün ana südü ilə qidalanmanın təşviqi üzrə təlimin təşkilini; 6,400 yeni doğulmuş körpənin bəhrələndiyi neonatal sağlamlıq skrininq təşəbbüsünü; Bakının 30 məktəbində məktəblilərin qidalanması proqramını; habelə ərzaq itkisi və israfına dair milli strategiyanın hazırlanmasını dəstəkləyib. Digər sahələrə gəlincə, BMT il ərzində uşaqlardan 1,600-dən çox zəng qəbul edən Milli Uşaq Qaynar Xəttinin fəaliyyətini; 25 məktəbdə 27,000-dən çox uşağı əhatə edən uşaqların müdafiəsi sisteminin pilot layihəsinin icrasını; 4,500-ə yaxın həssas əhaliyə pulsuz hüquqi yardımın verilməsini; 300-ə yaxın hüquqşünas və vətəndaş cəmiyyəti qrupları üçün insan hüquqları üzrə təlimin keçirilməsini; 20,000 gənc üçün karyera və şəxsi inkişafa dair resursların hazırlanmasını dəstəkləyib.




## NƏTİCƏ 2.2

### Qərarların qəbulu və siyasətlər üçün məlumatlar

2022-ci ildə BMT Milli Çoxgöstəricili Klaster Sorğusu (MICS) üçün məlumatların toplanması ilə bağlı hazırlıqları, ölkədə uşaq yoxsulluğunun təhlilinin yekunlaşdırılması və sistemlərin şoklara uyğunlaşdırılmasında istifadə olunacaq sosial müdafiə mexanizmlərinin qiymətləndirilməsini dəstəkləyib.

## NƏTİCƏ 3.1

### İqlim üzrə fəaliyyət və ətraf mühit

2022-ci ildə BMT Azərbaycanda iqlim dəyişikliyinə uyğunlaşma siyasətlərinin hərtərəfli hüquqi icmalını; İqlim Dəyişikliyi üzrə Həssaslıq İndeksinin tətbiqini; Hökumətin enerji səmərəliliyi və bərpa olunan enerjini təşviq etmək səylərini; dayanıqlı üzvi çirkləndiricilərin utilizasiyası və 160 ton köhnəlmiş pestisidlərin mühafizəsini; emissiya istehsalı və enerji siyasətində gender bərabərliyi ilə bağlı təlimatların hazırlanması və qəbulunu; və Kür çayında suyun idarə olunması üzrə qiymətləndirmə və tövsiyələrin hazırlanmasını dəstəkləyib.

Büdcə 42.9 million ABŞ dolları

## NƏTİCƏ 4.1

### Gender bərabərliyinin təmin olunduğu cəmiyyət

2022-ci ildə BMT qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın Azərbaycanda icrasını dəstəkləməklə; gender əsaslı zorakılığın qurbanlarını məlumatlandıran ilk veb portalı ərsəyə gətirməklə; ölkənin müxtəlif yerlərində fəaliyyət göstərən Qadın Resurs Mərkəzlərində "təhlükəsiz məkanların" açılması və ödənişsiz hüquqi və psixososial dəstəyi göstərməklə; gender əsaslı zorakılığın 235 qurbanını peşə hazırlığına cəlb etməklə; Məktəblərin inkişaf planına gender məsələsinin inteqrasiyası ilə; sosial mediada dini icmaları əhatə edən və təqribən 40,000 insanı əhatə edən "Gender bərabərliyi naminə kişilər" platformasını qurmaqla; 1,000-dən çox insan üçün gender bərabərliyi və din mövzusunda icma əsaslı təlimlər və məlumat sessiyaları keçirməklə; Beynəlxalq Qız Uşaqları Günündə 10,000 nəfəri əhatə edən gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi üzrə onlayn kampaniya vasitəsilə; kollec və məktəblərdə 1,000-dən çox gəncin iştirakı ilə gender əsaslı zorakılıq və ayrı-seçkiliyə dair müzakirələr təşkil etməklə; reproduktiv sağlamlıq, habelə zorakılıq və zərərli təcrübələrin qarşısının alınmasına dair 5,000-dən çox yeniyetmə qız üçün keçirilmiş məlumat sessiyaları ilə; və 300 şagird və mentorun iştirakı ilə qızlar üçün STEM mentorluq proqramını təşkil etməklə Azərbaycanda gender sahəsində irəliləyişə nail olub.





Münaqişədən zərər çəkmiş Füzuli rayonunun Əhmədalaylar kəndində yaşayan 69 yaşlı Tamilla Hüseynova BMT-nin humanitar yardımından faydalananlardan biri olub. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı /Elsevər Ağayev/2022

## 2.2. Əməkdaşlıq çərçivəsinin prioritetləri, nəticələri və məhsulları

### Münaqişədən sonra bərpa fəaliyyəti

Hökumət və BMT arasında 2022-ci ilin əvvəlində münaqişə və pandemiyadan sonrakı bərpaya dair keçirilmiş birgə yüksək səviyyəli görüş Azərbaycanda humanitar fəaliyyət, bərpa prosesi və dayanıqlı inkişafın dəstəklənməsinə dair BMT və onun tərəfdaşları arasında məhsuldar əməkdaşılığın formalaşmasına kömək edib.

Münaqişədən sonrakı bərpa tədbirlərini müəyyən etmək üçün 2022-ci ildə BMT-nin Azərbaycandakı nümayəndəliyi Avropa İttifaqı (Aİ) və Dünya Bankı (DB) ilə bir araya gəlib. Tədbirlər planı bərpa ehtiyaclarının birgə qiymətləndirilməsini, (i) institusional dəstək və inklüziv planlaşdırma sahələrində texniki yardım, məlumat və analitik dəstəyi; (ii) sosial xidmətlər və dayanıqlı qayıdışı; (iii) dözümlü iqtisadi inkişafı; (iv) ətraf mühitin bərpası və dayanıqlı enerji transformasiyasını; və (v) gender bərabərliyi və sosial inklüziyanı əhatə edəcək. Münaqişədən zərər çəkmiş ərazilərdə çoxsaylı mina və partlamamış hərbi sursatların qalması orada yaşayan icmaların təhlükəsizliyinə ciddi təhdidlər yaradıb. BMT partlamamış hərbi sursatların təmizlənməsi ilə bağlı potensialın artırılması və yerli icmaların mina riski üzrə maarifləndirilməsi üçün Hökumətlə əməkdaşlığı davam etdirib. İnkişaf tərəfdaşlarının dəstəyi ilə BMT Hökumətin minalarla mübarizə səylərini dəstəkləmək məqsədilə 2021-2024-cü illər üçün 12 milyon dollardan çox vəsait toplaya bilib.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) minalar və zərərçəkmişlərin olduğu ərazilər barədə cari və tarixi məlumatlar, eləcə də peyk görüntüləri, məsafədən və pilotsuz uçuş aparatları (PUA) vasitəsilə toplanan məlumatların idarə edilməsi üzrə potensialı artırılıb. Münaqişədən zərər çəkmiş yeddi rayon üçün tələb olunan resurslar və mina fəaliyyətinin təxmini müddətinin əks olunduğu profillər hazırlanıb. ANAMA-ya həmçinin Minalar Əleyhinə Milli Standartların (NMAS) tətbiqi və əməliyyat fəaliyyətlərinin əlaqələndirilməsi və idarəsi üçün qərarların qəbulunu dəstəkləyən kompüterləşdirilmiş vasitə olan beynəlxalq məlumat və keyfiyyətin idarəetmə sisteminin (IMSMA Core) təqdimatı ilə bağlı dəstək göstərilib. Bundan əlavə, dörd yerli QHT məcburi köçkünlərin doğma yurdlarına qayıdışını dəstəkləyib, həmçinin minalardan təmizlənmiş Cənubi Qafqaz naminə sorğular və vəkillik kampaniyalarına cəlb edilib. Bütün avadanlıqlarla təchiz olunmuş minatəmizləmə qrupları 99 kənddə təxminən 1,300 km2 ərazini tədqiq ediblər.

"Humanitar mina fəaliyyəti və DİM-lər" adlı beynəlxalq konfrans 37 ölkədən olan mütəxəssislərə təcrübə mübadiləsi aparmaq və Azərbaycanda ərazilərin minalardan təmizlənməsinə dair strateji tövsiyələr vermək üçün imkan yaradıb. Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə proqramı çərçivəsində icma və məktəblərdə 40,000-dən çox uşağı (42% qızlar) əhatə edən fəaliyyətləri təşkil etmək üçün 100-ə yaxın məktəbdə 1,000-dən çox müəllimə, habelə münaqişədən zərər çəkmiş 10 rayonda 500-dən çox icma lideri və könüllüyə təlim keçirilib. Təhlükəsiz davranışı təşviq edən ictimai maarifləndirmə kampaniyası magistral yollarda altı reklam lövhəsi və münaqişədən zərər çəkmiş kəndlərdə 75 reklam lövhəsinin qurulması ilə davam edib. Uşaqların bu cür məlumatları daha asan mənimsəməsi üçün oyunlar, dəftərlər, rəngli kitablar və yapışdırıcılar da daxil olmaqla 200,000 tədris vəsaiti hazırlanıb və paylanıb.

BMT həmçinin "DİM-lər və yeni şəhərsalma gündəliyi münaqişədən sonrakı bərpa və yenidənqurma işlərinin aparıcı qüvvəsi kimi" mövzusunda Birinci Milli Şəhərsalma Forumunun keçirilməsinə kömək edib. Forum geri qaytarılmış ərazilərdə davam edən yenidənqurma və bərpa səyləri kontekstində daha yaşıl, ağıllı, inklüziv, dayanıqlı və dözümlü şəhərsalmaya dair öhdəlikləri gücləndirmək üçün çoxtərəfli platforma rolunu oynayıb. BMT münaqişədən zərər çəkmiş doqquz rayonda uşaq və yeniyetmələrə keyfiyyətli psixi sağlamlıq və psixososial dəstək xidmətlərini göstərmək üçün məktəblərin potensialını gücləndirməyə davam edib. Artıq 2,000-dən çox məktəb müəllimi və 200 məktəb psixoloqu uşaqların sosial və emosional öyrənmə bacarıqlarını inkişaf etdirmək qabiliyyətinə malikdir. Bu proqramlar qızların, təhsilə xüsusi ehtiyacı olan və digər həssas uşaqların ehtiyaclarını diqqət mərkəzində saxlayıb. BMT münaqişədən zərər çəkmiş rayonlarda səhiyyə xidmətlərinin göstərilməsi və potensialın gücləndirilməsi sahəsində də səyləri dəstəkləyib. Belə ki, nevroloq, terapevt, pediatr və psixoloqlardan ibarət beş mobil tibbi qrup Ağdam, Bərdə, Tərtər, Ağcabədi, Füzuli və Gəncədə 9,000-dən çox insanı (təxminən 35% qadınlar, 18% kişilər, 47% uşaqlar) müayinə edib və tibbi yardım göstərib.

Münaqişədən zərər çəkmiş icmaların güzəranını dəstəkləmək üçün Füzuli və Tərtər rayonlarında 194 ailənin ehtiyacları qiymətləndirilib. 74 ailəyə (70% qadınlar və 5% əlilliyi olan insanlar) heyvandarlıqla məşğul olmaq üçün köməklik göstərilib. Bundan əlavə, 1,500 nəfərə (22% qadınlar, 36% qocalar və 21% gənclər) həyati vacib humanitar yardım göstərilib.

BMT münaqişədən zərər çəkmiş rayonlarda səhiyyə xidmətlərinin göstərilməsi və potensialın gücləndirilməsi sahəsində də səyləri dəstəkləyib. Belə ki, nevroloq, terapevt, pediatr və psixoloqlardan ibarət beş mobil tibbi qrup Ağdam, Bərdə, Tərtər, Ağcabədi, Füzuli və Gəncədə 9,000-dən çox insanı (təxminən 35% qadınlar, 18% kişilər, 47% uşaqlar) müayinə edib və tibbi yardım göstərib.

Münaqişədən zərər çəkmiş icmaların güzəranını dəstəkləmək üçün Füzuli və Tərtər rayonlarında 194 ailənin ehtiyacları qiymətləndirilib. 74 ailəyə (70% qadınlar və 5% əlilliyi olan insanlar) heyvandarlıqla məşğul olmaq üçün köməklik göstərilib. Bundan əlavə, 1,500 nəfərə (22% qadınlar, 36% qocalar və 21% gənclər) həyati vacib humanitar yardım göstərilib.




Zaqatala rayonunda arıçılıq biznesini uğurla genişləndirən Samirə Şabanzadə öz məhsullarını qürurla təqdim edir
BMT-nin İnkişaf Proqramı /2022

# NƏTİCƏ 1.1
# İNKLÜZİV ARTIM VƏ LAYİQLİ ƏMƏK

## Kənarda qalan insanlar əmək bazarının gələcək yönümlü transformasiyasını və layiqli əməyə çıxış imkanını əhatə edən şaxələndirilmiş və innovativ iqtisadiyyatda iştirak edir və ondan yararlanır

Ölkə son illərdə iqtisadi artım və şaxələndirmə baxımından irəliləyiş əldə etsə də, işsizlik səviyyəsi yüksək olaraq qalır (6%). Bu xüsusilə də 15-29 yaşlı gənclər (10,1%) və qadınlar (7%) arasında (kişilərdə 4,9%) özünü göstərir. Bundan əlavə, bir çox işçi müvafiq sosial müdafiə olmadan qeyri-rəsmi sektorda işləməyə davam edir, həmçinin müxtəlif sənaye və regionlar üzrə əmək haqqı və iş şəraitində əhəmiyyətli fərqlər mövcuddur. MKOS-lar və sosial müəssisələr, o cümlədən qadınlara məxsus bizneslər ciddi problemlərlə üzləşirlər. Bunlar arasında maliyyə imkanlarına çıxışda məhdudiyyətlər (Dünya Bankının 2021-ci il "Enterprise Survey" hesabatına əsasən müəssisələrin yalnız 8,2%-nin kredit əldə etmək imkanı var), dəyişən biznes mühitinə uyğunlaşmaq üçün kifayət qədər bacarıq və biliklərin olmaması və normativ maneələr qeyd olunur. Kənd təsərrüfatı kəndlərdə bir çox ev təsərrüfatları üçün əsas gəlir mənbəyi olaraq qalır. Lakin bu sektor tez-tez aşağı məhsuldarlıq, köhnəlmiş texnologiya və bazara məhdud çıxışla xarakterizə olunur.

Bu problemləri həll etmək üçün 2022-ci ildə BMT milli tərəfdaşlarla əməkdaşlığı davam edib. İcra olunmuş layihələr arasında iş yerlərinin yaradılmasının təşviqi və əmək bazarının nəticələrinin yaxşılaşdırılmasına yönəlmiş proqramları, MKOS-lara ünvanlı dəstəyi, peşə təhsili və təlimləri, habelə kənd dəyər zəncirinin inkişafına məqsədyönlü dəstəyi qeyd edə bilərik.

### MKOS-lara dəstək

BMT məşğulluğun əsas amilləri olan MKOS-ların yaradılması və dəstəklənməsinə kömək edib. 2022-ci ildə 287 yeni kiçik müəssisə yaradılıb (onların 83%-i qadınlara, 3%-i insan alveri qurbanlarına, 6%-i əlilliyi olan şəxslərə, 8%-i isə məcburi köçkünlərə məxsusdur). Qadın Resurs Mərkəzlərinin uğurlu fəaliyyətini əsas götürərək, 2022-ci ildə daha üç rayonda, o cümlədən Cəlilabad, Bərdə və Sumqayıtda analoji mərkəzlər

**Nəticə 1.1**

12,6 milyon dollarlıq büdcədən 2022-ci ildə DİM-lər üzrə ayrılmış vəsait




2022-ci ildə Maliyyələşmə





Qadınların səlahiyyətlərinin artırılması layihəsinin iştirakçılarından biri olan Sədaqət Babayeva yeni bacarıq və biliklərlə bağını genişləndirdikdən sonra məhsulunu toplayır
BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı /2022



**287**

**YENİ KİÇİK MÜƏSSİSƏ**

yaradılıb (onların 83%-i qadınlara, 3%-i insan alveri qurbanlarına, 6%-i əlilliyi olan şəxslərə, 8%-i isə məcburi köçkünlərə məxsusdur)



**1,400-dən**

**(611 QADIN)**

bacarıqların artırılması təlimlərində iştirak edib. İştirakçılar arasında qaçqınlar (65), məcburi köçkünlər (23), əlilliyi olan şəxslər (61) və insan alverinin qurbanları (26) olub



**250-dən**

**QADINA**

on iki rayonda arıçılıq, südçülük, quşçuluq və bağçılıq təsərrüfatları üçün müvafiq texnika və alətlər verilib

yaradılıb. Bu mərkəzlər qadınların rəhbərlik etdiyi sahibkarlıq və məşğulluğu dəstəkləmək üçün 1,000-dən çox üzvü birləşdirir. 2022-ci ildə mərkəzlər altı satış sərgisi və tanışlıq şəbəkəsinin genişləndirilməsi üzrə 30 tədbir keçirib.

Sosial sahibkarlar, dövlət rəsmiləri, mütəxəssislər, innovasiya laboratoriyaları və beynəlxalq təşkilatlara sosial sahibkarlığa dair siyasət tövsiyələrinin əks olunduğu hesabat və yol xəritəsi təqdim edilib.

## Bacarıqların artırılması və peşə təhsili

BMT-nin gördüyü işlər nəticəsində əhalinin ən həssas təbəqələri, o cümlədən qadınlar, gənclər, əlilliyi olan şəxslər və qaçqınlar arasında məşğulluq imkanlarını artırmaq üçün insan kapitalı və ixtisaslı işçi qüvvəsi yaradılıb. 2022-ci ildə 1,400-dən çox gənc (611 qadın) BMT-nin dəstəyi ilə bacarıqların artırılması təlimlərində iştirak edib. İştirakçılar arasında qaçqınlar (65), məcburi köçkünlər (23), əlilliyi olan şəxslər (61) və insan alverinin qurbanları (26) olub. Bundan əlavə, BMT-nin dəstəyi ilə yaradılmış PROGRO onlayn iş platforması işaxtaranlar və işəgötürənlər, o cümlədən 2,000-dən çox iş axtaran gənc (2021-ci ilin sentyabrından 66% artım) və 20 şirkət arasında əlaqələrin qurulmasına kömək edib.

BMT Azərbaycanda peşə təhsilinin keyfiyyətinin artırılması üçün müxtəlif milli tərəfdaşlarla işləməyə davam edib. Peşə təlimi və təhsilinin təşviqi kampaniyası 200-ə yaxın məktəbdə 46,000-dən çox insanı əhatə edib və Peşə Təhsili üzrə Dövlət Agentliyinin təşkil etdiyi Açıq Qapı Günlərinə dəstək verib. Aparıcı mehmanxanalar, restoranlar və pərakəndə satış şirkətləri də daxil olmaqla, özəl sektor şirkətlərinin 72 nümayəndəsinin cəlb olunduğu Dövlət Peşə Təhsili Mərkəzləri üçün üç Qəyyumlar Şurası yaradılıb. Bu, 2022-ci ildə peşə təhsili və təlimi (PTT) mərkəzlərinin tədris proqramlarının birgə nəzərdən keçirilməsinə və yenilənməsinə kömək edib. Bundan əlavə, Bakı və Gəncə şəhərlərində fəaliyyət göstərən Peşə Təhsili məktəblərində dörd Karyera Dəstək Mərkəzi yaradılıb. BMT həmçinin rəqəmsal öyrənmə resurslarını yaratmaq və onlayn təlim kurslarını keçirmək üçün peşə məktəblərinin potensialını genişləndirib. Sənaye və İnnovasiyalar üzrə peşə məktəblərində Müəllimlərin təlimi üzrə qabiliyyət mərkəzi yaradılıb. Burada modulların çeşidi telestudiyalar, PUA və robot texnikasının texniki xidməti kimi yeni sahələrlə genişləndirilib. Ümumilikdə, 1,441 tələbə karyera istiqamətləndirmə və öyrənmə proqramlarından faydalanıb. 2022-ci ildə 4,600-dən çox insan peşə hazırlığı fənləri üzrə 51 onlayn dərsə qatılıb.




Oxumaq üçün tıklayın



## Kənd yerlərində qazanc vasitələri və kənd təsərrüfatı

BMT-nin kənd yerlərində güzəranı yaxşılaşdırmaq məqsədilə həyata keçirdiyi fəaliyyətlər əsasən qadınlara yönəlib, çünki onlar kənd təsərrüfatında işçi qüvvəsinin təxminən 45%-ni təşkil edir və çoxu kiçik ailə təsərrüfatlarında çalışır. On iki rayonda 250-dən çox qadına arıçılıq, südçülük, quşçuluq və bağçılıq təsərrüfatları üçün müvafiq texnika və alətlər verilib. Kənd təsərrüfatı sahəsində genderə həssas siyasətin etibarlı məlumatlar əsasında hazırlanması üçün Ölkə üzrə Gender Qiymətləndirilməsinin nəticələri və tövsiyələr maraqlı tərəflərə geniş şəkildə çatdırılıb. Genderə həssas kredit sxemləri üzrə aparılan araşdırma kiçik torpaq sahibləri və fermerlərə, xüsusən də kənd qadınlarına verilən resurslarla bağlı qərarlara gender perspektivlərini inteqrasiya etməyi məsləhət görür.

Meyvə-tərəvəz istehsalı və heyvandarlıq üçün dəyər zəncirini inkişaf etdirmək üçün fermerlər və xidmət təminatçılarının bilik və bacarıqları artırılıb. Burada əsas diqqət fermer assosiasiyaları və birlikləri də daxil olmaqla icma əsaslı əməkdaşlığa yönəlib. Kənd təsərrüfatı istehsalını yaxşılaşdırmaq məqsədilə tərəvəzçilik və toxumçuluq üzrə elmi-tədqiqat institutları və laboratoriyalarının xəstəliklərin diaqnostikası və məhv edilməsi üzrə texniki bacarıqları artırılıb. Ümumən, 45 xidmət təminatçısı (50%-i qadınlar) öz fəaliyyət planlarında gender aspektinin nəzərə alınmasına dair təlimlərdə iştirak edib.

BMT həmçinin 23 yerli qida istehsalı qrupu və alıcılar arasında 12 tədarük müqaviləsinin bağlanmasına kömək edib. Kənd yerlərində yaşayan insanlara daha yaxşı əkinçilik və marketinq üsullarına dair təlimlər keçirilib: 708 fermer (17%-i qadınlar) fındıq istehsalı, 100 qadın biznesin inkişafı, heyvandarlıq və meyvəçilik, 223 ailə təsərrüfatı isə yerli bitkilərin dayanıqlı yetişdirilməsi sahəsində bilik və bacarıqlarını artırıb.

Lənkəranda keçirilən Aqroinnovasiya üzrə ilk İdeya marafonunda 74 gənc (28%-i qadınlar) meyvə-tərəvəzin becərilməsi və emalı sahəsində innovativ ideyalar irəli sürüb.

## Əmək hüquqları və inklüziya

BƏT-in əsas prinsipləri və əmək hüquqlarına, habelə konvensiyalar və tövsiyələrin tətbiqi üzrə ekspertlər komitəsinin şərhlərinə uyğun olaraq, məşğulluqda və peşələrdə ayrı-seçkiliyin qarşısını almaq üçün Azərbaycan Əmək Məcəlləsinə texniki baxış keçirilib.

2022-ci ilin oktyabrında Milli Məclis "Azərbaycanın Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanunu qəbul edərək, qadınlar üçün qadağan olunmuş peşələrin sayını 674-dən 204-ə endirib. Qadağalar yalnız hamilə qadınlar və bir yaşınadək uşağı olan qadınlar üçün saxlanıb.

Azərbaycanda və xaricdə yaşayan emiqrantlar, miqrantlar və pul köçürmələrini alanlar arasında maliyyə inklüzivliyini və rəqəmsal maliyyə xidmətlərindən istifadəni dəstəkləmək məqsədi ilə cari pul köçürmələrinin axını, müvafiq təcrübə və xidmətlər, mövcud milli qanunvericilik bazaları və siyasətləri üzrə qiymətləndirmə aparılıb. Pul köçürmələri ilə bağlı rəqəmsal həllərin təkmilləşdirilməsi məqsədilə hesabatda öz əksini tapmış tövsiyələrin icrasını izləmək üçün dövlət və qeyri-hökumət təşkilatlarından ibarət 19 nəfərlik işçi qrupu yaradılıb.

- BMT davamlı vəkillik və siyasətlərlə bağlı fəaliyyətləri ilə hamı üçün işləmək hüququnun təşviqini davam edib. İndi digər ölkələrdən olan qaçqınlar və sığınacaq axtaran şəxslər Dövlət Miqrasiya Xidmətinin verdiyi PİN-kodlarla işləmək hüququna malikdirlər. Bu tənzimləmə sözügedən həssas qrupları işə qəbul prosedurları, vergilərin tutulması, müqavilənin qeydiyyatı və əmək haqqı baxımından Azərbaycan vətəndaşları ilə bərabər mövqeyə qoyur. Bununla belə, praktikada qaçqınlar hələ də bu yenilikdən faydalanmaqda çətinliklər çəkir. BMT bu istiqamətdə özəl şirkətlərdə təcrübə proqramı, peşə kursları və karyeraya dair məlumat sessiyaları kimi bir sıra təşəbbüsləri sınaqdan keçirib. 2022-ci ildə 12 gənc qaçqın qanuni məşğulluğa başlama perspektivi ilə yerli şirkətlərdə təcrübə keçib.
- Əlilliyi olan 100 nəfər inklüziv peşə təhsili proqramlarına cəlb edilib.

UĞUR HEKAYƏSİ

## Azərbaycanda peşə məktəbləri məzunları üçün yeni imkanlar: 17 yaşında karyeraya necə başlamalı

Bu il təhsilini başa vurduqdan sonra qısa müddət ərzində yaxşı iş tapmağı bacaran PTT məzunlarından biri 17 yaşlı Məlahət Əzizovadır. 5 saylı PTT məktəbində (Bakının Buzovna kəndi) aşpaz peşəsi üzrə təhsilini uğurla bitirdikdən sonra Məlahət məşhur restoranlardan birində iş təcrübəsinə təyinat alıb.

Mətbəxdə öz bacarıqları ilə hər kəsin diqqətini çəkən Məlahət yayda aşpaz köməkçisi vəzifəsinə təyin olunub. İndi onun sabit işi, layiqli qazancı və perspektivli karyerası var.

"Aşpaz olmaq mənə o qədər də ciddi iş kimi görünmürdü, çünki hər kəs bu və ya digər şəkildə nəsə bişirə bilər. Əvvəllər yemək bişirməyi öyrənmək üçün iki il vaxt sərf etmək mənə qəribə fikir kimi gəlirdi", – Məlahət üzündə təbəssümlə xatırlayır.

Amma məktəbdə ilk dərslərə qatılandan sonra Məlahət aşpazlığın çox maraqlı xırdalıqlarının olduğunu kəşf edib.

"Kurslar müxtəlif kulinariya üslubları, üsulları, mürəkkəb sousları və istədiyiniz qabığa, ideal yumşaqlığa və s. nail olmağı öyrədən sehrli bir dünyanı mənə təqdim etdi. Bu qədər şorba çeşidlərinin olduğunu heç düşünməzdim! O zaman məndə bu peşəyə maraq yarandı.

Öyrənməli çox şeyin olduğunu və hər zaman inkişaf etməyin vacibliyini anladım.".




NƏTİCƏ 2.1 BMT QURUMLARI

Food and Agriculture Organization of the United Nations · International Labour Organization · IOM UN MIGRATION · UNDP · UNECE · UNHCR · UNFPA · unicef for every child · United Nations Human Rights · UNIDO · World Health Organization

Şamaxı rayonunda nənə İmmunlaşdırma Həftəsində nəvələrini peyvənd etdirməyə gətirib
Ümumdünya Səhiyyə Təşkilatı /Cavid Qurbanov/2022

# NƏTİCƏ 2.1
# SOSİAL MÜDAFİƏ, KEYFİYYƏTLİ DÖVLƏT VƏ SOSİAL XİDMƏTLƏR

Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq, diqqətdən ən çox kənarda qalanlar sosial müdafiə və keyfiyyətli dövlət və sosial xidmətlər üçün gücləndirilimiş milli potensial və idarəçilik strukturlarından faydalanır

## Keyfiyyətli təhsil və təlimə çıxışın təmin olunması

Azərbaycan yüksək ümumi savadlılıq səviyyəsi (UNESCO-nun Statistika İnstitutunun məlumatına görə, 15 yaş və yuxarı insanlar üçün savadlılıq səviyyəsi 99,7% təşkil edir), habelə ibtidai və orta təhsilə qəbul sahəsində (müvafiq olaraq 94,31% və 93,86%) keyfiyyətli təhsil və təlimə çıxış baxımından üstünlüyə malikdir. Bununla belə, bütün uşaqlar üçün təhsilə bərabər çıxışın təmin edilməsi və təhsil nəticələrində şəhər-kənd və sosial-iqtisadi fərqlərin azaldılmasında problemlər qalmaqdadır. COVID-19 pandemiyası distant təhsilə ehtiyac və bütün tələbələr üçün təhsilə davamlı çıxış imkanının təmin olunması kimi yeni sınaqları üzə çıxardıb. Hökumətə bu problemlərin həllində kömək etmək üçün BMT 2022-ci ildə bir sıra tərəfdaşlarla əməkdaşlığı davam etdirib.

Öyrənmənin bərpası ehtiyaclarına uyğun olaraq BMT-nin müvafiq proqramı ölkədə öyrənmə qiymətləndirməsinin ən aşağı nəticə göstərdiyi altı rayonda fəaliyyəti davam etdirib. Müəllimlər təxminən 900 ibtidai və orta məktəb şagirdinə (46% qızlar) təhsilin bərpası üzrə dəstək göstərib. Nəticədə, onların qiymətləri 50 faizə qədər artıb. Həmçinin, bu altı hədəf rayonun seçilmiş məktəblərində sınaqdan keçirilmiş fərdi mentorluq proqramı vasitəsilə 75 müəllim davamlı peşəkar inkişaf dəstəyi alıb.

Məktəbəqədər təhsil xidmətlərinin keyfiyyətinə dair aparılan araşdırma Azərbaycanda erkən uşaqlıq dövründə qayğı və təhsil (ECCE) sisteminin və xidmətlərinin köklü təkmilləşdirilməsinə dəstək olmaq üçün geniş xülasə, təhlil və yol xəritəsini təmin edib. Tədqiqat gender bərabərliyi, iqlim dəyişikliyinə dözümlülük və inklüzivliyə diqqət yetirməklə erkən uşaq təhsilində inteqrasiya olunmuş xidmətləri vəd edən milli ECCE islahatı üçün lazımi məlumatları təmin edəcək.

**Nəticə 2.1**

24,6 milyon dollarlıq büdcədən 2022-ci ildə DİM-lər üzrə ayrılmış vəsait




2022-ci ildə Maliyyələşmə




27,206,455
Planlaşdırılmış büdcə

Xərclər: 21,035,101 İcra dərəcəsi: 90%

## Keyfiyyətli və inklüziv səhiyyə xidmətlərinə çıxış

### COVID-19-a qarşı fəaliyyətlər və immunlaşdırma

2022-ci ildə Azərbaycanın COVID-19-a qarşı cavab tədbirləri nəticəsində peyvənd kampaniyasında mühüm irəliləyiş əldə olunub. Ölkədə 13 milyon dozadan çox COVID-19 peyvəndi vurulub, 2023-cü ilin mart ayına qədər 5 milyondan çox insan tam peyvənd olunub. Hökumət tibb işçilərinin sayını və səhiyyə resurslarını artırmaqla səhiyyə infrastrukturunu genişləndirib. 2022-ci ildə 209,959 yoluxma halı və 1,662 ölüm qeydə alınıb. BMT 2022-ci ildə ölkənin peyvənd kampaniyasını texniki və məsləhət yardımı vasitəsilə Hökumətin cavab səylərini dəstəkləməyə davam edib.

Azərbaycanın COVID-19 pandemiyası ilə mübarizə tədbirlərinə Aralıq Baxışı əlaqələndirmə, epidemioloji nəzarət, yoluxma hallarının aşkarı və idarə edilməsi, təmasın izlənməsi və infeksiyanın qarşısının alınması və nəzarəti üzrə öyrənilmiş dərsləri müəyyənləşdirməyə kömək edib. Bu, COVID-19 pandemiyasına qarşı cavab tədbirləri üçün müvafiq məlumatları təmin edib və ölkənin gələcək epidemiyalara hazırlığını gücləndirməyə imkan yaradıb.

İnfeksiyanın Qarşısının Alınması və Nəzarəti (İQAN) üzrə milli işçi qrupu yaradılıb. 50 xəstəxanada fəaliyyət göstərən İQAN komitələrinin 100 üzvü üçün İQAN tədbirlərinin monitorinqi və qiymətləndirilməsi kimi əsas komponentlərə dair təlim keçirilib. İşçi qrupu həmçinin tibb müəssisələri üçün İQAN üzrə iş planını hazırlayıb.

OpenWHO platformasında Azərbaycan dilində istifadəyə verilmiş “İQAN-da liderlik və proqramların idarə olunması” kursuna 2,100-dən çox tibb işçisi qatılıb. Kursu təşviq edən kampaniya 2022-ci ilin martına qədər iştirakçı sayını on dəfə artıraraq 18,000-ə çatdırıb.

Azərbaycanda COVID-19 hallarının idarə edilməsi üzrə milli təlimatları yeniləmək üçün işçi qrupuna texniki yardım göstərilib. 250 tibb işçisi bu xəstəliyin uzunmüddətli təsirlərini müalicə etmək və reabilitasiya haqqında biliklərini artırıb. “Reabilitasiyaya dəstək: COVID-19-la əlaqəli xəstəlikdən sonra özünüidarəetmə” adlı təlimat kitabçası tibb müəssisələrinə paylanıb.

Məlumatların idarə edilməsi sistemlərini gücləndirilmək məqsədilə hökumətə 260 İT cihazı verilib. “Fəaliyyət üçün məlumat” təşəbbüsü COVID-19 peyvəndlərinin yüksək səviyyədə mənimsənilməsinə nail olmaq üçün xüsusi strategiyaların hazırlanmasında statistik məlumatlar və tədqiqat nəticələrinin səmərəli istifadəsini təşviq edib.




Balaca qız #Eurovilage 2022 festivalında peyvənd olunmaqla simvolik olaraq “xəstəliklərdən qurtulur” – ictimai səhiyyə və rifahın təşviqi üzrə Aİ-BMT əməkdaşlığını nümayiş etdirən stend. Ümumdünya Səhiyyə Təşkilatı /Anar Bayramlı/2022

17,600 əl gigiyenası dispenseri, dezinfeksiya vasitəsi, kəmər klipləri və risk kommunikasiyası üzrə 16,000 vəsait 100 tibb müəssisəsinə, o cümlədən münaqişədən zərər çəkmiş beş rayonda paylanılıb.

Hökumətə 6,000-dən çox soyuq zəncir avadanlığı, o cümlədən dondurma birlikləri, peyvənd daşıyıcıları, peyvənd soyuducuları, lövhələr və soyuq qutular verilib. İlk dəfə peyvəndin çatdırılması müəssisələri ənənəvi ev soyuducuları və civə termometrlərini əvəz edən peyvənd soyuducuları və temperaturu müşahidə edən elektron cihazlardan istifadə edib.

1,500 tibb işçisi peyvəndin effektivliyi üzrə araşdırmada iştirak edib. Ölkədə sağlamlıq və peyvənd statusuna dair məlumat bazası yaradılıb. 300-ə yaxın tibb işçisi və epidemioloq peyvəndlərin istifadəsi və saxlanması üzrə təlimlərə qatılıb, regional gigiyena və epidemiologiya mərkəzlərinin 150-yə yaxın əməkdaşı isə müvafiq təlimlər aldıqdan sonra soyuq zəncir inventarına dair onlayn platformadan istifadə edib.

İmmunlaşdırma xidmətinin gücləndirilməsi üçün milli təlimat hazırlanıb, həmçinin Hökumətə vərəm və poliomielit əleyhinə peyvəndlər də daxil olmaqla, milli peyvənd təqviminə uyğun olaraq peyvəndlərin proqnozlaşdırılması və satın alınmasına dair dəstək verilib. Göstəricilərin aşağı olduğu altı kənddə 0-10 yaşlı 378 uşaq rutin peyvənd olunub (onlardan 62% natamam və ya qeyri-müəyyən immunlaşdırma statusuna malik olub) və 78 yetkin şəxsə COVID-19 peyvəndi vurulub.

Radio verilişləri, çap materialları və digər vasitələrlə təxminən 275,000 insan COVID-19 peyvəndi və/və ya adi peyvəndlər haqqında məlumat əldə edib. Son illər Azərbaycan keyfiyyətli və inklüziv səhiyyə xidmətlərinə, o cümlədən icbari tibbi sığorta, ilkin tibbi yardım və qidalanma sistemlərinə çıxışın

- BMT-nin davamlı vəkillik və məsləhəti nəticəsində 371 qaçqın və sığınacaq axtaran uşaq 96-dan çox dövlət məktəbində yerli əhali ilə bərabər əsasda ödənişsiz ümumi təhsil almaq imkanı əldə edib. Onlara həmçinin əlavə dil və riyaziyyat kursları təşkil olunub. Həmçinin 42 qaçqın tələbə (20 qadın) təqaüd dəstəyi ilə ali təhsilini davam etdirib.
- Əlilliyi olan 205 uşaq (46%-i qızlar) ibtidai və orta təhsilə cəlb edilib, inklüziv məktəblərin sayı isə 12-dən 22-yə yüksəlib. Bundan başqa, 430 məktəb müəllimi, 375 məktəb rəhbəri və 22 məktəb psixoloquna bütün uşaqlara, xüsusən də əlilliyi olanlara keyfiyyətli inklüziv təhsil xidmətlərin göstərilməsi üzrə təlimlər keçirilib. Bu fəaliyyətlər, stiqma, stereotiplər, gender və əlilliyi olan şəxslərlə bağlı mənfi sosial normalara toxunan kommunikasiya kampaniyaları ilə müşayiət olunub.

**UĞUR HEKAYƏSİ**

## Azərbaycanda qızların özlərinə güvənmələri üçün imkanlar

On il əvvəl Zeynəddin Nilabın ailəsi Əfqanıstandan qaçaraq Azərbaycanda sığınacaq tapıb. Xarici ölkədə üzləşdiyi bir çox maneələrə baxmayaraq, Nilab öz arzularına çatmaq əzmində qalaraq, uğur qazanıb.

Nilabın məktəbdəki zəhməti və fədakarlığı öz bəhrəsini verib - o, tibb kollecinə qəbul olub. Nilab tibb təhsili almaq fürsətini əldə etdiyinə görə çox sevinirdi. Çünki bu, onun uşaqlıq arzusu idi.

Təhsilini bitirdikdən sonra Nilab “Leyla tibb mərkəzi”nin perinatal şöbəsində tibb bacısı kimi əmək fəaliyyətinə başlayib. O, tez bir zamanda həm faydalı, həm də sınaqlarla dolu olan işinə aşiq olub. “Burada çalışdığım müddətdə məni dəstəkləyən və istiqamət göstərən həmkarlarımı çox sevirəm. Onların bilik və təcrübələrini hər zaman mənimlə bölüşmək istəyi mənə öz bacarıqlarımı təkmilləşdirməyə imkan verib”, - Nilab deyib.



Zəhməti, fədakarlığı və işinə olan həvəsi sayəsində Nilab qaçqın kimi gəldiyi xarici ölkədə uğur qazanmağa müvəffəq olub.
O, əldə etdiyi nailiyyətlərlə fəxr edir və ona verilən imkanlara görə BMT-yə və Azərbaycan cəmiyyətinə minnətdardır. Nilab hələ yolunun tam başlanğıcında olduğunu anlayır. O, tibb bacısı kimi pasientlərinə mümkün olan ən yaxşı qayğını göstərmək üçün öyrənmək və inkişaf etmək istiqamətində səylərini əsirgəməyəcək.

təmin olumasında mühüm irəliləyiş əldə edib. Ölkədə əhalinin 90%-dən çoxunu əhatə edən icbari tibbi sığorta proqramı həyata keçirilib və 400-dən çox yeni ilkin tibbi yardım mərkəzi yaradılıb. Bundan əlavə, Azərbaycan həssas əhali qrupları, o cümlədən hamilə qadınlar və uşaqlar üçün bir sıra qidalanma proqramı həyata keçirib. Bununla belə, bütün vətəndaşların, xüsusən də kənd

yerlərində yaşayanlar üçün səhiyyə xidmətlərinə bərabər çıxışın təmin edilməsində problemlər qalmaqdadır. Bundan əlavə, COVID-19




Baxmaq üçün tıklayın

Azərbaycan dilində psixi sağlamlıq üçün özünə kömək veb-saytı **mhps.psm.az** istifadəyə verilib

pandemiyası səhiyyə sisteminin daha da gücləndirilməsinə, o cümlədən intensiv terapiya resurslarına əlçatanlığın artırılmasına ehtiyacın olduğunu göstərib.

2022-ci ildə BMT Azərbaycanda təcili tibbi yardım sisteminin gücləndirilməsinə diqqət ayırıb. Fövqəladə hallara cavab tədbirləri üzrə məlumatın idarə edilməsi sisteminin (ERİMS) qiymətləndirilməsi çərçivəsində cari informasiya sistemləri və mövcud proseslərin xəritəsi tərtib edilib. Nəticələr və tövsiyələr əsasında yol xəritəsi hazırlanıb, həmçinin xərclər, potensial təsir, aktuallıq və həyata keçirilmə mümkünlüyü nəzərə alınmaqla 13 fəaliyyət prioritetləşdirilib. Bundan əlavə, antibiotiklərin düzgün istifadəsi ilə bağlı məlumatlılığı artırmaq üçün Ümumdünya antimikrob preparatlarından düzgün istifadəyə dair maarifləndirmə həftəsi keçirilib. Seçilmiş səhiyyə müəssisələrində səhiyyə ilə əlaqəli



Gəncədə evi ziyarət edən təcrübəli tibb bacısı Günel və üç aylıq körpə Raul BMT-nin Uşaq Fondu/Əliyev/2022

infeksiyalar, antimikroblara qarşı müqavimət, habelə antibiotik istehlakı və istifadəsi üzrə sorğu aparılmağı nəzərdə tutulur.

Keçən il BMT psixi sağlamlıq xidmətlərinin göstərilməsində hökumətə dəstəyini genişləndirib. 2020-ci il müharibəsi COVID-19 pandemiyası ilə birlikdə artan stress, travma və psixoloji problemlərə səbəb olub. Psixi sağlamlıqla bağlı stiqma da problem olaraq qalır və bir çox insan kömək istəməkdən çəkinir. BMT psixi sağlamlıq haqqında məlumatlılığın artırılması və stiqmanın azaldılmasına kömək edib, psixi sağlamlıq problemlərinin daha yaxşı diaqnostikası və müalicəsi üçün səhiyyə mütəxəssislərini resurslar və təlimlərlə təmin edib. Təxminən 200 pasient (46% qadınlar) iki böyük psixi sağlamlıq xəstəxanasında 510 seansda psixoloji məsləhətlər alıb. Otuz psixi sağlamlıq mütəxəssisi qabaqcıl terapiya üsulları, o cümlədən posttravmatik stress pozuntusu (PTSP) üzrə təlimlərdə iştirak edib. Bundan başqa, münaqişədən zərər çəkmiş ərazilərdə fəaliyyət göstərən ilkin səhiyyə xidmətinin 84 həkimi psixi sağlamlıq üzrə bacarıqlarını artırıb. Ölkədə psixi sağlamlıq xidmətlərini genişləndirmək üçün Azərbaycan dilində psixi sağlamlıq üçün özünə kömək veb-saytı (https://mhps.psm.az/ ) istifadəyə verilib və Psixi Sağlamlıq Boşluğu üzrə Fəaliyyət Proqramının təlimat kitabçası maraqlı tərəflərə təqdim edilib.

## Ana və uşaq sağlamlığı xidmətləri

2022-ci ildə BMT keyfiyyətli ana və uşaq sağlamlığı xidmətlərinə çıxışın yaxşılaşdırılması üçün müvafiq texniki yardım göstərib, səhiyyə işçilərinə təlimlər təşkil edib, eləcə də səhiyyə savadlılığı və məlumatlılığını təkmilləşdirmək məqsədilə icmalarla sıx fəaliyyəti təşviq edib. Azərbaycanın son illər ərzində ana və uşaq sağlamlığı sahəsində əhəmiyyətli irəliləyiş əldə etməsinə baxmayaraq, xüsusilə kənd yerləri və müvafiq xidmətlərin göstərilmədiyi ərazilərdə problemlər hələ də qalmaqdadır. Kənd yerlərində ana ölümü əmsalı şəhərlərə nisbətən 3 dəfə çoxdur. Belə ki, kənd yerlərində bu əmsal hər 100,000 diridoğulana 27,3 təşkil edirsə, şəhər yerlərində bu rəqəm 7,4-dür. Universal mütərəqqi ev ziyarəti modeli dörd rayonda 35,000-ə yaxın uşağı və 9,000-dən çox

UĞUR HEKAYƏSİ

## Yeni nəfəs: Azərbaycanda həssas qruplara aid uşaqların inteqrasiyası üçün bərabər imkanlar

Şahin Quliyev 2015-ci ildə, 13 yaşında Azərbaycanın Ağcabədi rayonundakı İnklüziv Təhsil və Uşaq İnkişaf Mərkəzinə getməyə başlayıb. Şahin Daun sindromludur və o zaman onun qavrayış, sosial, özünə qulluq və motorika bacarıqları üçyaşlı uşaq səviyyəsində idi.

Altı il sonra onun sosial bacarıqları yaşına uyğun bir səviyyəyə çatıb. Anası Firəngiz Quliyeva deyir: “Mən həmişə arzu etmişəm ki, Şahinin dostları olsun, çörək pulu qazansın. İndi Şahin sərbəst şəkildə evdən çıxıb işə gedir, nəqliyyatdan istifadə edir, alış-verişə çıxır. Evimiz universitetin yaxınlığındadır. Şahin boş vaxtlarında ora gedir, tələbələrlə vaxt keçirir, onlardan yeni nəsə öyrənməyə çalışır”.



Ağcabədi rayonunda yerləşən Mərkəz regionlarda yaşayan xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv təhsil imkanlarını genişləndirmək məqsədi ilə 2013-cü ildə yaradılıb. 2018-ci ildən etibarən BMT bu Mərkəzə icma və ailə əsaslı inteqrasiya olunmuş sosial xidmətlər üzrə dəstəyini verir.

İndi 19 yaşı olan Şahin digər uşaqlara və onların valideynlərinə bir nümunədir. Mərkəzin əlaqələndiricisi Rada Qafarova deyir: “Şahin bu mərkəzə gələndən sonra fenomen olub. Onu nümunəvi birisi kimi bir çox tədbirlərə dəvət edirlər. Mərkəzi yaradanda məqsədimiz də bu idi. Bütün insanların bərabər imkanlara malik olduğunu nümayiş etdirmək və onlara bu cəmiyyətin bir parçası olduqlarını hiss etdirmək idi”.

hamilə qadını əhatə edib. Bu model ev ziyarətləri zamanı təcrübəli tibb bacılarının göstərdiyi xidmətləri gücləndirir və valideynlərə uşaqlarının yaşadığı mühiti qiymətləndirməsinə dəstək olur. Milli səhiyyə xidmətləri bu modeli qəbul edib. Ev ziyarəti xidmətləri ilə bağlı yeni təlimat təsdiq edilib. Hazırda 700-dən çox tibb işçisi bu xidmətləri göstərir. Evləri ziyarət edənlər və ilkin xidmət işçiləri üçün erkən uşaqlıq inkişafı üzrə rəqəmsal resurs platformasında (www.eudi.az ) 10 onlayn təlim modulu mövcuddur.

Bundan əlavə, ana südü ilə qidalanmanı təşviq edən qlobal Körpə dostu klinikası təşəbbüsü 2022-ci ildə ölkədə bir qədər də genişləndirilib. Bu təcrübələri xəstəxanalarda tətbiq etmək üçün 16 doğum şöbəsi və 380 tibb işçisi üçün təlim keçirilib. Uşağın uzunmüddətli sağlamlığına və ya sağ qalmasına təsir edə biləcək şərtləri müəyyənləşdirən neonatal skrininq proqramı tətbiq olunub və 2022-ci ilin iyun ayından bəri 6,400 yeni doğulmuş körpələrdən daban testi götürülüb.

- Qaçqın və sığınacaq axtaran şəxslərə səhiyyə xidmətlərindən istifadə imkanı təmin edilib: 421 nəfər (192 qadın) İcbari Tibbi Sığortadan faydalanaraq tibbi müayinə və müalicədən keçib; 600 nəfərə (282 qadın) zəruri dərman preparatları verilib, 43 nəfərə isə psixoloji yardım göstərilib.
- 592 potensial istismar qurbanı (43% qadınlar, 34% qızlar, 23% oğlanlar) psixoloji yardım alıb və digər səhiyyə xidmətlərindən istifadə edib.
- 2022-ci ildə BMT səhiyyə sahəsində milli satınalma sistemini gücləndirmək, habelə vərəm və İİV-nin müalicəsini təkmilləşdirmək üçün maraqlı tərəflərlə birlikdə çalışıb. Bu fəaliyyətlərdən təxminən 8,000 nəfər faydalanıb. Bundan əlavə, 1,300-ə yaxın məhkum Hepatit C virusunun müalicəsi üçün dərman vasitələri ilə təmin edilib.

## Qidalanma və ərzaq

Ölkə öz qidalanma sistemlərinin təkmilləşdirilməsində irəliləyiş əldə etsə də, qidalandırıcı yeməyə məhdud çıxış və sağlam qidalanma vərdişləri haqqında qeyri-adekvat bilik və məlumatlılıq kimi problemlər hələ də qalmaqdadır. Xüsusən də uşaqlar və qadınlar arasında doyunca yeməmə, anemiya və piylənmə mühüm ictimai sağlamlıq problemləri olaraq qalır. Hökumətə bu problemləri həll etmək və öz vətəndaşlarının qidalanma nəticələrini yaxşılaşdırması üçün BMT texniki yardım, maliyyə və ekspertiza dəstəyi verib.

Siyasət və praktiki addımlar üçün lazımi məlumatları təqdim etmək məqsədilə ibtidai sinif yaşlarında olan uşaqlar arasında artıq çəki və piylənmə meyllərininin ölçülməsi istiqamətində məlumatların toplanmasına başlanıb.

Reklam siyasətləri ilə əlaqədar monitorinq və qiymətləndirməni gücləndirmək üçün yağ, şəkər və duzun yüksək olduğu qida və içkilərin reklamı ilə bağlı araşdırmalar da davam etdirilir. Uşaq və yeniyetmələrdə piylənmənin idarə edilməsi sahəsində İlkin tibbi yardım həkimlərinin texniki potensialı artırılıb. Məktəblərin səlahiyyətli

şəxslərinə sağlam və təhlükəsiz qidalanma mövzusunda təlim keçmək üçün Bakının 30 orta təhsil ocağında məktəblilərin qidalanması layihəsinə start verilib. Bu qiymətləndirmə müsbət nəticələri üzə çıxarıb. Məsələn, səhər yeməyi yeməyən uşaqların sayı 20-dən 7 faizə, süd məhsulları yeməyənlər 15-dən 5 faizə, gün ərzində şirniyyatın yeyilməsi isə 36-dan 13 faizə qədər azalıb. Siyasət səviyyəsində Qida məhsullarına nəzarət sisteminin qiymətləndirilməsi aləti və istehlakçıların sağlamlığını qorumaq və qida ticarəti sahəsində ədalətli təcrübələri təşviq etmək üçün standartlar, təlimatlar və praktik məcəllələrin toplusu olan Kodeks Alimentarius və ya "Qida Məcəlləsi" üzrə yerli qurumların bilik və bacarıqları artırılıb.

BMT həmçinin 2030-cu ilə qədər qida tullantılarını 50% azaltmaq və tədarük zəncirləri boyunca ərzaq itkilərini azaltmaq üçün lazım olan tədbirləri və alətləri əks etdirən Ərzaq itkisi və tullantılarının (FLW) qarşısının alınması, azaldılması və monitorinqi üzrə Milli strategiyanın hazırlanmasında Hökuməti dəstəkləyib.

- İraq və Suriyadan repatriasiya olunmuş 200 uşaq və onların ailə üzvləri psixoloji dəstək alıb.
- Qanunu pozmuş 140-a yaxın uşaq (şərti və ya məhkəməyəqədər və ya məhkəmədən sonra saxlanılmış) və onların ailələrinə sosial iş, psixi sağlamlıq, psixososial və hüquqi yardım göstərilib.
- Ukraynadan olan 150-yə yaxın miqrant (88%-i qadınlar) təcili humanitar yardım, o cümlədən yaşayış, qida, tibbi və inzibati dəstək alıb. Bundan əlavə, şəxsi təhlükəsizlik, gender əsaslı zorakılıq, insan alveri, miqrasiya və fövqəladə hallar üçün əlaqə məlumatlarının əks olunduğu 2,000 nüsxə nəşr Azərbaycan və Ukrayna dillərində paylanılıb.

## İnklüziv sosial müdafiə xidmətlərinə çıxış

Azərbaycan Milli Uşaq Qaynar Xəttinin təşviqi ictimaiyyətin uşaqlara qarşı zorakılıq haqqında məlumatlılığını artırıb, zorakılıq halları baş verdiyi halda müvafiq orqanlara məlumatın verilməsi və müvafiq dəstəyin alınmasına dair insanların münasibətini dəyişib. 2022-ci ildə 1,622 uşaq qaynar xətlə əlaqə sax layaraq, zorakılıq barədə məlumat verib və dəstək istəyib. Uşaqlara qarşı zorakılığın qarşısını almaq üçün 240 vasitəçi ailə münaqişələri və boşanmalar zamanı vasitəçilik prosedurlarına dair uşaq hüquqları və uşaq faktorunu rəhbər tutan yanaşma ilə bağlı təlimdə iştirak edib. Uşaqların Mühafizəsi (UM) sistemi Bakının 25 məktəbində sınaqdan keçirilib və 27,000-dən çox uşağı əhatə edib. Təlim keçmiş UM qrupları məktəblərdə gender əsaslı zorakılıq da daxil olmaqla uşaqlara qarşı zorakılıq hallarının müəyyən edilməsi, müvafiq qurumların məlumatlandırılması və belə hallarda adekvat tədbirlərin görülməsinə cavabdehlik daşıyır.

BMT insan alveri və məcburi əməyin qarşısının alınması və onunla mübarizə üçün Bakı, Gəncə, Lənkəran və Qubada 31 dövlət qurumu və 15 QHT-dən 46 dövlət və sosial xidmət təminatçısına (43%-i qadınlar) təlimlər keçib. BMT-nin dəstəyi ilə həssas vəziyyətdə olan qadın və uşaqlara sosial yardım və sosial müdafiəni təmin edən 10 QHT-yə maliyyə vəsaitlərinin toplanması üzrə təlimlər keçirilib. Təxminən 160 tibb işçisi insan alveri qurbanlarına yardımın daha yaxşı çatdırılması ilə bağlı biliklərini artırıb. Bundan əlavə, BMT Ümumdünya İnsan Alverinə Qarşı Mübarizə Gününə həsr olunmuş iki aylıq ictimai məlumatlandırma kampaniyasını həyata keçirib. Kampaniyanın məqsədi profilaktik tədbir kimi ictimaiyyətin maarifləndirilməsi və insan alveri halları ilə rastlaşdıqda qaynar xətt vasitəsilə məlumatlandırmağı təşviq etmək idi.

- İnsan alverinin qurbanı olmuş 64 qadın reabilitasiya və cəmiyyətə reinteqrasiya olmaq üçün müvafiq dəstək alıb.

Ümumdünya İnsan Alverinə Qarşı Mübarizə Gününə həsr olunmuş videolardan biri. Video insan alveri qurbanları və ya potensial qurbanları, habelə ictimaiyyət arasında məlumatlılığı artırmaq üçün mövcud dəstək xidmətlərindən bəhs edir Beynəlxalq Miqrasiya Təşkilatı / 2022



Videonu izləmək üçün tıklayın

## Ədliyyə xidmətlərinə və iştirakçı mexanizmlərə çıxış

BMT insan hüquqlarının müdafiəsi, ədliyyə xidmətləri və iştirakçı mexanizmlərə çıxışın artırılması və sosial birliyi qorumaq üçün siyasət və mexanizmləri gücləndirmək məqsədilə milli tərəfdaşlarla əməkdaşlığı davam etdirib.

Fəaliyyətlərdən biri beynəlxalq standartlara uyğun olaraq həssas qrupların (məsələn, əlilliyi olan şəxslər, məcburi köçkünlər, qaçqınlar və miqrantlar, insan alveri qurbanları, müharibə veteranları) hüquqlarını müdafiə etmək üçün hüquqşünaslar və vətəndaş cəmiyyəti təşkilatlarının bilik və bacarıqların artırılması olub. Təxminən 4,500 nəfər (54%-i qadınlar) sosial təminat hüququ, mülkiyyət və mənzil hüquqları, əmək hüquqları, məişət zorakılığı, mülki və inzibati mübahisələr kimi məsələlərdə ödənişsiz hüquqi yardım alıb. Bu dəstəyə istiqamətləndirmə, müraciətlərin hazırlanması, məhkəmə çəkişmələri, apellyasiya şikayətləri və məhkəmədə hüquqi təmsilçilik daxil olub.

BMT milli tərəfdaşlar üçün BMT-nin insan hüquqları mexanizmlərinə dair təlimləri davam etdirib. Belə ki, 148 hüquqşünasa və 103 vətəndaş cəmiyyəti təşkilatının 144 nümayəndəsinə BMT-nin insan hüquqları müqavilələrinin prinsipləri və öhdəlikləri, eləcə də monitorinq iştirakçılarının rolu haqqında təlim keçirilib. Bundan əlavə, insan hüquqlarına dair 23 nəşr, o cümlədən mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlara dair praktiki təlimatlar və məlumat vərəqləri Azərbaycan dilində onlayn və çap formasında dərc edilib.




BMT təmsilçiləri Şamaxıdakı düşərgədə 200-dən çox gənclə görüşərək, DİM-lər, BMT-nin Azərbaycandakı fəaliyyəti və digər mövzular haqqında onlara məlumat veriblər. BMT-nin İnformasiya Mərkəzi /2022

## Effektiv idarəetmə mexanizmləri

[İqtisadi İnkişafı dəstəkləyən Bələdiyyə Sədrləri](#) təşəbbüsü Azərbaycanfa həyata keçirilməyə başlayıb. Bu, texniki yardım, təlim və tanışlıq şəbəkəsinin genişləndirilməsi imkanlarını təqdim etməklə öz bələdiyyələrində dayanıqlı iqtisadi inkişafı və iş yerlərinin yaradılmasını təşviq etmək üçün merlərə və yerli hakimiyyət orqanlarına dəstək verən qlobal təşəbbüsün bir parçasıdır. Mingəçevir, Naftalan, Xırdalan şəhərləri, Səbail rayonu, Urva kəndi və Bakı İçərişəhər Administrasiyası da daxil olmaqla seçilmiş altı yerli icra hakimiyyəti orqanı enerji səmərəliliyi, sosial və iqtisadi inklüzivlik, yerli istehsal, turizm və irsin idarə olunması sahələrində təşəbbüslər üzərində çalışır.

## Transsərhəd və regional təşəbbüslər

2022-ci ildə BMT sərhədlər arasında əlaqələndirilmiş səylər və kollektiv fəaliyyət tələb edən ümumi problemləri həll etmək üçün transsərhəd və regional təşəbbüslər üzərində işləməyə davam edib.

Diqqət mərkəzində olan sahələrdən biri - regional tərəfdaşlığı tələb edən və mürəkkəb proses olan miqrasiya idi. BMT Belarus, Gürcüstan, İran, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkiyə, Türkmənistan, Ukrayna və Özbəkistanda bu sahədə təhsil potensialının gücləndirilməsi məqsədilə Azərbaycanda Miqrasiya üzrə Regional Təlim Mərkəzinin yaradılmasına kömək edib. 2022-ci ildə Tədris Mərkəzinin yaradılması ilə bağlı ətraflı tədbirlər planı hazırlanıb. Miqrasiya üzrə səkkiz əsas moduldan ibarət regional təlim planı pilot olaraq 10 ölkədən 22 təlimçiyə təqdim edilib, eləcə də Azərbaycan, Türkiyə və Özbəkistanda miqrasiya rəsmiləri üçün tətbiq edilib.

BMT həmçinin TIR kimi tanınan beynəlxalq avtomobil nəqliyyatını müasirləşdirmək üçün rəqəmsal texnologiyadan istifadə etməkdə irəliləyişlər əldə edib. 2022-ci ilin dekabrında Özbəkistan və Azərbaycan arasında TIR Konvensiyasının Əhatəsi altında Malların Beynəlxalq Daşımalarına dair Gömrük Konvensiyasına uyğun olaraq ilk elektron TIR (eTIR) daşımaları həyata keçirilib. Bu, TIR sisteminin yeni rəqəmsal dövrə qədəm basdığını göstərir və BMT-nin beynəlxalq nəqliyyatın müasirləşdirilməsinə yönəldilmiş uzun müddətli səylərinin nəticəsidir.

## Gənclərlə bağlı işin gücləndirilməsi

BMT 2023-2027-ci illər üçün yeni Dövlət Gənclər Proqramının işlənib hazırlanmasında, nəticəyə əsaslanan idarəetməyə dair məsləhətlər verməklə və milli maraqlı tərəfləri cəlb etməklə hökuməti dəstəkləyib. [Azərbaycanda gənclər və iqlim fəaliyyətinə dair araşdırma](#) müvafiq strategiya və təlimatın hazırlanması üçün əsas təşkil edib.

900-ə yaxın gənc (58% qızlar) hazırda ölkə üzrə 15 Gənclərin İnkişaf və Karyera Mərkəzi və 23 Gənclər Evində mövcud olan [Əsas Həyat Bacarıqları proqramı](#) vasitəsilə alət və bacarıqları əldə edib. Bundan əlavə, Peşə Təhsili və Tədris Müəssisələrində 20,000 gənc (48%-i qızlar) tədris proqramının Fərdi İnkişaf və Karyera Planlaşdırılması modulundan bəhrələnib. Yerli Gənclər Məsləhət Şuralarının 124 üzvü (52% qızlar) ətraf mühit və partlayıcı sursatların təhlükəsi ilə bağlı maarifləndirmə sahələrində icma əsaslı layihələr icra edib. Bu fəaliyyətlər Tərtər, Bərdə, Goranboy kimi münaqişədən zərər çəkmiş rayonlar da daxil olmaqla, beş rayonda 1,500 gənci (52% qız) əhatə edib.

Yay festivalında 200 gənc fəal üçün BMT Həftəsi təşkil olunub. Bu tədbir BMT-nin milli və qlobal prioritetləri və onların gənclərlə necə əlaqəli olduğunu müzakirə etmək üçün yaxşı fürsət olub. Bundan əlavə, BMT-nin Modeli konfransı 15 universitet və orta məktəb tələbələri və şagirdlərini bir araya gətirərək, onlara BMT mexanizmləri vasitəsilə kibertəhlükəsizlik, məcburi köçkünlük, iqlim dəyişikliyi və ərzaq təhlükəsizliyi kimi aktual qlobal problemləri müzakirə etmək imkanı verib.



**NƏTİCƏ 2.2 BMT QURUMLARI**

İmmunlaşdırma Həftəsi zamanı tələbə yaşlı qadının qan təzyiqini yoxlayır. Ümumdünya Səhiyyə Təşkilatı/Cavid Qurbanov/2022

# NƏTİCƏ 2.2
# QƏRARLARIN QƏBULU VƏ SİYASƏTLƏR ÜÇÜN MƏLUMATLAR

## Heç kəsi kənarda qoymayan qərarların qəbulu və siyasətlərin hazırlanması üçün keyfiyyətli, çeşidlənmiş və vaxtında təqdim olunan məlumatlar mövcuddur və istifadə edilir

2019-cu ildə Azərbaycan üzrə statistik məlumatların mövcudluğu indeksi 68.1 (100 bal sistemi ilə) təşkil etməklə məlumatların yalnız 7%-nin (2019-cu il üzrə) olmadığını göstərib. O vaxtdan bəri DİM-lə bağlı məlumatların mövcudluğu ilə bağlı vəziyyət yaxşılaşıb. UNESCAP-ın ən son məlumatına görə, ümumi 247 qlobal DİM göstəricilərinin 140-na dair kifayət qədər məlumat, 33-ü ilə bağlı yetərsiz, 74 göstərici ilə əlaqədar isə heç bir məlumat yoxdur. Milli DİM platforması məlumatları hər il dərc etsə də, qlobal məlumatlarla uyğunsuzluqlar və fərqlər var və onların araşdırılmasına ehtiyac var.[2]

Faktlara əsaslanan siyasətlər və qərarların qəbulu proseslərini müvafiq məlumatlarla təmin etmək üçün BMT DİM-lər üzrə monitorinqlərin aparılması, hesabatların hazırlanması və məlumatların əlçatanlığını təkmilləşdirmək məqsədilə institusional imkanları gücləndirməyə davam edib.

BMT-nin dəstəklədiyi əsas təşəbbüslərdən biri Çoxgöstəricili Klaster Sorğusudur (MICS). Bu sorğu xüsusilə də qadınlar və uşaqlarla bağlı 21 DİM göstəricisi üzrə məlumatları çeşidlənmiş formada təmin edəcək. MICS-in işinə nəzarət etmək üçün nazir müavinləri səviyyəsində 18 nazirlik və komitə təmsilçisindən ibarət yüksək səviyyəli istiqamətləndirici komitə yaradılıb. 2022-ci il ərzində sorğunun 2023-cü ildə başlanmasına hazırlıq məqsədilə maraqlı tərəflərin bilik və bacarıqları artırılıb. BMT-nin dəstəyi ilə 2022-ci ildə ölkədə uşaq yoxsulluğu haqqında keyfiyyətli məlumatı əldə etmək üçün Uşaq Yoxsulluğunun Çoxölçülü Aspektlərinin Təhlili (MODA) aparılıb. Orada, uşağın və ya ev təsərrüfatı başçısının cinsi, yaşadıqları bölgə, valideynlərin təhsili və ailə təsərrüfatının ölçüsü kimi məhrumiyyətlərə səbəb olan nümunələr təhlil edilib.

**2022-ci ildə Maliyyələşmə**

Büdcə 1,845,319

Büdcə kəsiri 1,721,126

3,566,445
Planlaşdırılmış büdcə

Xərclər: 1,416,966 İcra dərəcəsi: 77%

BMT şoklara dözümlü sosial müdafiə (SRSP) mexanizmlərinin işlənib hazırlanmasında Hökumətə dəstək olmaq üçün qiymətləndirmə aparıb. Qiymətləndirmənin nəticələri və tövsiyələri əhalinin böyük bir hissəsinə eyni vaxtda təsir edən genişmiqyaslı sarsıntılardan sonra kontekstdə və tələbatdakı dəyişikliklərin öhdəsindən gəlmək üçün sosial müdafiə proqramları və sistemlərinin uyğunlaşdırılmasında istifadə olunacaq. Bundan əlavə, məlumatların toplanmasını və səhiyyə xərclərinin təhlilini dəstəkləmək üçün milli tərəfdaşlara Səhiyyə Hesabları Sistemi təqdim edilib.

İnsan hüquqlarına əsaslanan yanaşmaya uyğun olaraq şəxsi məlumatların məxfiliyi və qorunması mədəniyyətini təşviq etmək üçün rəqəmsal texnologiyaların tətbiqi, tənzimlənməsi və istifadəsi, habelə məlumatların toplanmasında süni intellektdən istifadəyə dair tendensiyalar, problemlər və imkanlar haqqında məlumatlar milli maraqlı tərəflərə təqdim edilib.

2. Milli Statistika Komitəsinin məlumatına görə, 248 qlobal göstəricidən 112-si (45,2%) və milliləşdirilmiş 119 göstəricidən 86-sı (72,3%) üzrə məlumatlar mövcuddur. Dezaqreqasiya 112 qlobal göstəricidən 76-sı (67,9%) üzrə mövcuddur. 38-i tam, 38-i qismən bölünmüş, qalan 20 göstərici üzrə iş aparılır, çünki 16 göstərici üzrə dezaqreqasiya tələb olunmur.



**NƏTİCƏ 3.1 BMT QURUMLARI**

Food and Agriculture Organization of the United Nations · IOM UN MIGRATION · UNDP · UNECE · unicef for every child · UNIDO · World Health Organization

Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü və BMT-Azərbaycan tərəfdaşlığının 30 illiyi münasibətilə Şüvəlan çimərliyində təmizlik aksiyası
BMT-nin İnformasiya Mərkəzi /2022

# NƏTİCƏ 3.1
# İQLİM ÜZRƏ FƏALİYYƏT VƏ ƏTRAF MÜHİT

İnsanlar, o cümlədən kənarda qalanlar təbii sərvətlərdin dayanıqlı şəkildə idarə olunmasını, yaşayış üçün vasitələrinin qorunmasını və dayanıqlılığın gücləndirilməsini təmin edən iqlim strategiyaları və ətraf mühitin mühafizəsi siyasətlərindən faydalanırstrengthened

"Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" və "2022-2026-cı illərdə Sosial-İqtisadi İnkişaf Strategiyası"nda təmiz ətraf mühit və "yaşıl inkişaf" ölkənin 2030-cu ilədək inkişafının beş prioritet istiqamətindən biri kimi müəyyən edilib. Ölkə bir sıra yeni qanunlar qəbul etməklə, eləcə də enerji resursları və enerji səmərəliliyi ilə bağlı mövcud qanunvericiliyə dəyişikliklər etməklə özünün ətraf mühitə dair qanunvericiliyini yeniləyib. Milli su strategiyası (2021-2038-ci illər) hazırlanıb və su ehtiyatlarından səmərəli istifadəni təmin etmək üçün iki illik fəaliyyət planı təsdiq edilib. 2021-ci ildə Azərbaycan sıfır emissiyalı avtomobil və furqonlara keçidin sürətləndirilməsinə dair COP26 bəyannaməsini imzalayıb. Elə həmin ildən etibarən elektrik avtomobilləri və enerji doldurucuları, eləcə də ictimai nəqliyyat vasitələri üçün vergi güzəştləri tətbiq edilir. Bu səylərə baxmayaraq, iqlim dəyişikliyi və ətraf mühitin dayanıqlığı ilə bağlı problemlərin həlli üçün görülməli işləri əhəmiyyətli dərəcədə təkmilləşdirmək lazımdır. Dünya Bankının Azərbaycan üzrə iqlim riski təhlilinə görə, temperaturun qlobal orta səviyyədən daha sürətli yüksəlməsi proqnozlaşdırılır. Bu da ölkədə insan sağlamlığı, qazanc və ekosistemlərə təsirlərini gücləndirməklə yoxsul icmalara təsir edəcək. İqlim dəyişikliyi, ətraf mühitin sağlamlığı və ekosistemin canlılığı üzrə qlobal vəziyyəti qiymətləndirən Ekoloji Effektivlik İndeksində Azərbaycan 180 ölkə arasında 104-cü yeri tutub. Son illər ərzində məlumatların toplanması, istehsalı və hesabatı da daxil olmaqla ətraf mühitin monitorinqi üzrə milli sistem təkmilləşdirilsə də, hələ də aradan qaldırılmalı boşluqlar var. BMT bu problemləri həll etmək üçün Hökumət və milli tərəfdaşlarla əməkdaşlığı davam etdirib.

## İqlim fəaliyyəti

2022-ci ildə BMT iqlim dəyişikliyinə dair fəaliyyətlərin planlaşdırılması, izlənməsi və hesabat verilməsi, habelə bu sahədə maliyyə və texnologiyalara çıxış üçün institusional potensialı gücləndirməyə davam edib.

**Nəticə 3.1**

4,7 milyon dollarlıq büdcədən 2022-ci ildə DİM-lər üzrə ayrılmış vəsait




2022-ci ildə Maliyyələşmə




BMT-NIN ÖLKƏ ÜZRƏILLIK HESABATI 2022 7

5,701,129
Planlaşdırılmış büdcə

Xərclər: 3,381,046 İcra dərəcəsi:72%

Ətraf Mühit üzrə Fəaliyyətin üçüncü İcmalı hüquqi və siyasi çərçivələr, iqtisadiyyatın yaşıllaşdırılması, havanın mühafizəsi, su və tullantıların idarə edilməsi, biomüxtəliflik və qorunan ərazilər kimi mühüm milli məsələlərə toxunur. Orada həmçinin ölkənin enerji, sənaye, kənd təsərrüfatı və səhiyyə sektorlarında ətraf mühit komponentlərini öz siyasətlərinə inteqrasiya etmək səyləri araşdırılıb.

Regionun bütün ölkələrində və ondan kənarda ətraf mühitin sistemli və effektiv qiymətləndirilməsinə ehtiyac hələ də aktual qalır. Azərbaycan hazırda ölkənin dayanıqlı inkişafı, iqlim və sağlamlıq məqsədlərinə nail olması üçün effektiv vasitə olan Ətraf Mühitin Strateji Qiymətləndirilməsinə (SEA) qoşulmaq istiqamətində addımlar atır. 2022-ci ildə Gəncə şəhərinin baş planının layihəsi üzrə SEA aparılması üçün pilot layihəyə başlanılıb. Yekunlaşdıqdan sonra, bu pilot layihə 2023-cü ildə Azərbaycanda məkan planlaşdırmasında SEA-nın tətbiqi üçün nümunə rolunu oynayacaq və o, ölkəyə investisiyaların yaşıllaşdırılmasına və infrastrukturun dayanıqlı və iqlimə dözümlü olmasına dəstək verəcək.

BMT hökumətə Azərbaycanda iqlim dəyişikliyinə uyğunlaşma siyasətlərinin hərtərəfli hüquqi təhlilini aparmağa kömək edib və müəyyən qayda və qanunların qəbulu və ya yenilənməsi üçün tövsiyələr siyahısını hazırlayıb. Bu sektorda az təmsil olunan qadınların iştirakını təşviq etmək üçün gender əsaslı iş planı hazırlanıb. Sahil ərazilərində, suda və kənd təsərrüfatında iqlim dəyişikliyinə uyğunlaşma ilə bağlı siyasət icmalları hazırlanıb. İnvestisiya variantlarını qiymətləndirmək üçün maliyyə strategiyası, eləcə də kənd təsərrüfatı, su ehtiyatlarının idarə edilməsi və sahil zonalarında dövlət investisiyalarına iqlimin təsirlərini qiymətləndirmək üçün risklərin müəyyənləşdirilməsi alətləri tərtib edilib.

İqlim fəaliyyəti ilə bağlı ictimaiyyətin məlumatlılığını artırmaq üçün iqlim dəyişikliyinə uyğunlaşma üzrə tədrisin dövlət qulluğu təhsili, eləcə də universitetlər və peşə məktəblərində ixtisaslaşmış kursların

kurrikulumlarına inteqrasiyası ilə bağlı bir sıra tövsiyələr təqdim edilib. Azərbaycanda İqlim Dəyişikliyi ilə bağlı ictimai məlumat portalı təqdim edilib. Portal dövlət qurumları ilə maraqlı tərəflər arasında əlaqələndirməyə kömək edəcək və real vaxt rejimində iqlim şəraiti, uyğunlaşma siyasətləri, risklər və həssas məqamlar haqqında məlumat verəcək.



Fermerlər bioenerji istehsalında perspektivli sahə olan fındığı daha yaxşı becərməyi öyrənirlər. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı /2022

Ölkənin ən həssas əraziləri üçün gələcək uyğunlaşma strategiyalarının hazırlanmasına kömək etmək məqsədilə qabaqcıl beynəlxalq təcrübələrə əsaslanan İqlim Dəyişmələrinə Həssaslıq İndeksi Azərbaycanda təqdim edilib. İqlim dəyişikliyi kontekstində Xəzər dənizinin səviyyəsindəki dəyişmələri, onun ekosistemi və biomüxtəlifliyini, mümkün proqnozlar və uyğunlaşma tədbirlərini müzakirə etmək üçün yerli və beynəlxalq alimlər bir araya gəlib.

## Enerji səmərəliliyi və bərpa olunan enerji

Hökumət 2021-ci ildə qəbul edilmiş (i) enerji resurslarından səmərəli istifadə və enerji səmərəliliyi və (ii) elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında iki qanunla enerji səmərəliliyi və bərpa balansında bərpa olunan enerjinin gücünü 30%-ə çatdırmağı qarşısına məqsəd qoyub. Bu məqsədlə, 2023-cü ildə 440 MVt, 2023–2025-ci illərdə 460 MVt, 2026–2030-cu illərdə isə 600 MVt olmaqla ümumilikdə 1500 MVt yeni generasiya güclərinin yaradılması planlaşdırılır.

BMT dayanıqlı inkişafın təşviqi və iqlim dəyişikliyi ilə mübarizə sahələrində daha geniş səylərinin bir hissəsi kimi Azərbaycanda enerji səmərəliliyi və bərpa olunan enerjinin inkişafını dəstəkləyir.

BMT-nin dəstəyi ilə Azərbaycan Binalarda Enerji Səmərəliliyi Standartları üzrə Çərçivə Təlimatlarına uyğun olaraq, mövcud enerji səmərəliliyi standartları və onların tətbiqi üzrə boşluqların təhlilini aparıb. Boşluqların təhlili çoxmənzilli binalarda enerji səmərəliliyi si və təmirə diqqət yetirməklə mənzil sahəsində yüksək effektiv standartların qəbulu və tətbiqi qarşısındakı maneələrə toxunur.

BMT-nin hazırladığı Bərpa Olunan Enerjinin Statusu Hesabatı bərpa olunan enerji mənbələrinin geniş potensialını və onların ölkəyə faydalarını araşdırır, həmçinin həm ölkə, həm də regional səviyyədə ən son statistik məlumatlar və meyllər, onların qiymətləndirilməsi və şərhini təqdim edir.

Dayanıqlı bioenerji siyasətləri və strategiyalarının layihələndirilməsi və həyata keçirilməsində alətlər və təlimatlar təklif edən Bioenerji və Qida Təhlükəsizliyinə Yanaşma (BEFS) əsasında milli potensial qurulub. Fındıq dəyər zəncirində dayanıqlı bioenerji variantlarını qiymətləndirmək və ölkədə istehsal təcrübələrini təhlil etmək üçün

araşdırma aparılıb. Bundan əlavə, münaqişədən zərər çəkmiş Bərdə rayonunda sosial problemlərin həllinə xidmət edən səmərəli, etibarlı və keyfiyyətli xidmətlərin təmin edilməsi məqsədilə istilik təchizatı tarif sisteminə dair tövsiyələr hazırlanıb.

## Ətraf mühitin təhlükələri və çirklənməsinin aradan qaldırılması

Azərbaycan hava və suyun çirklənməsi, eləcə də neft və qazın kəşfiyyatı və nəqli ilə bağlı təhlükələr daxil olmaqla ciddi ekoloji problemlərlə üzləşir. BMT insan sağlamlığı və ətraf mühitin qorunması sahəsində göstərdiyi səylərin bir parçası kimi bu problemlərin aradan qaldırılmasında fəal iştirak edir.

2022-ci ildə BMT pestisidlərin həyat dövrünün idarə edilməsi və dayanıqlı üzvi çirkləndiricilərin (DÜÇ) utilizasiyası üzrə milli potensialın yaradılması, habelə müvafiq hüquqi bazaların qiymətləndirilməsi və yenidən nəzərdən keçirilməsi üçün Hökumətlə əməkdaşlığı davam etdirib. Ucar və Salyan rayonlarında iki pilot DÜÇ-lərlə çirklənmiş sahənin təfərrüatlı tədqiqi və boş konteynerlərin idarə olunması sisteminin ilkin qiymətləndirilməsi aparılıb, DÜÇ-lərin sement sobasına atılması variantları öyrənilib. 2022-ci ildə 160 ton köhnəlmiş pestisidlər təcrid edilib.

BMT çəyirtkələrlə mübarizə əməliyyatlarının insan sağlamlığına və ətraf mühitə təsirinin azaldılmasında Hökuməti dəstəkləyib. Çəyirtkələrin monitorinqi və idarə edilməsi və pestisidlərin təsirinin azaldılması, o cümlədən texniki təlimlər və avadanlıq dəstəyi vasitəsilə avtomatlaşdırılmış məlumatların toplanması üzrə milli potensial yaradılıb.

BMT aşağıdakı məsələlərə dair təlimatların işlənib hazırlanmasında və qəbul edilməsində Hökuməti dəstəkləyib: (a) enerji və sənaye sektorlarında müəssisələr üçün emissiya istehsalı üzrə meyar və standartların müəyyən edilməsi; və (b) gender və iqlim dəyişikliyi ilə bağlı məsələlərin enerji siyasətinə inteqrasiyası. BMT-nin hazırladığı bir sıra tövsiyə və siyasət təlimatları tam icra olunduğu təqdirdə təbii qazın avtomobil nəqliyyatında payını effektiv şəkildə artıracaq və beləliklə, bu kritik sektorda karbon izini azaldacaq.

Arılar, kəpənəklər, quşlar və yarasalar kimi tozlandırıcılar ətraf mühitin mühafizəsində mühüm rol oynadıqları üçün onların mühafizəsi sağlam ekosistemlərin və insanların sağlamlığı və rifahının qorunması üçün vacibdir. Azərbaycanda tozlandırıcıların Dayanıqlı Meşə İdarəçiliyi Planlarına inteqrasiyası səylərinin bir hissəsi olaraq, tozlandırıcıların kənd təsərrüfatına və qeyri-ağac meşə məhsullarına verdiyi iqtisadi dəyəri qiymətləndirmək üçün məhsul məlumat bazası tərtib edilib və sadə alət yaradılıb. Həmçinin “arı bitkilərinin” (bal arıları və digər tozlandırıcılar üçün yem ehtiyatlarını təmin edən bitkilər) inventarlaşdırılması, tozlandırıcıların monitorinqi üçün metodologiya və bir çox qruplar (arıçılar, meşə təsərrüfatı işçiləri, fermerlər və dərman bitkilərinin istifadəçiləri) üçün meşə landşaftlarında tozlandırıcılarla əlaqəli faydaları qiymətləndirmək məqsədilə protokol hazırlanıb.



Ənənəvi, dayanıqlı su təchizatı sistemləri olan qədim kəhrizlərdə bərpa işləri genişlənir.  Beynəlxalq Miqrasiya Təşkilatı /2022

## Su resurslarının idarə olunması

Şoranlaşmanın su təchizatına, insanların sağlamlığına və ətraf mühitə potensial təsirlərini vurğulamaqla Kür çayı üçün hidrogeoloji qiymətləndirmə aparılıb. Şoranlaşmanın artdığı dövrlərdə rayonlarda su təchizatının alternativ üsulları müəyyən edilib. Nəticələr və tövsiyələr Hökumət və seçilmiş maraqlı tərəflərlə paylaşılıb.

Ənənəvi, dayanıqlı su təchizatı sistemi olan kəhrizlərin yaradılması və təhvil verilməsindən sonra qanuni sahiblik, texniki xidmət və istifadəyə dair tövsiyələrin siyahısı dövlət orqanlarına təqdim edilib. Bu tövsiyələrin Milli Su İdarəetmə Strategiyasına daxil olunacağı gözlənilir.

UĞUR HEKAYƏSİ

## Bu məişət tullantısıdır? Xeyr, bu bir sənət əsəridir!

Fidan Manafova analıq məzuniyyətində olarkən məişət tullantılarının emalı ilə maraqlanıb və sosial şəbəkədə bloq açıb. O, “Özün yarat” (“Do It Yourself” ) konsepsiyasını səylərinizin nəticəsini göründə fərqli hisslər və emosiyaların fırtınası kimi təsvir edir. “Beton balqabaqlar” təkrar emal konsepsiyası əsasında hazırlanmış ilk əşyalar idi. Mən onları qızımla bağ evimizdə hazırlamışdım. Daha sonra müxtəlif növ məişət tullantıların-dan istifadə etməklə ev üçün bəzək əşyalarının düzəldilməsi ilə bağlı videolar paylaşmağa başladıq”, - Fidan deyir.

Yenidən istifadə oluna bilən materiallardan istifadə edərək bəzək əşyalarının istehsalı ilə maraqlanandan qısa müddət sonra, o əl işlərini peşəkarlara nümayiş etdirmək imkanı qazandı. O, məişət tullantılarının təkrar emalı ilə bağlı innovativ həlləri təşviq etmək üçün 2021-ci ildən bəri BMT-nin hər il keçirdiyi “Özün Yarat”



(“Do It Yourself”) müsabiqəsinə qatılıb. Onun işi 250 namizəd arasından “Ən yaxşı ağac əl işi” nominasiyasında mükafata layiq görülüb. Fidan əlavə edir ki, mükafat onu çox ruhlandırıb: “Anladım ki, işimi inkişaf etdirməliyəm”.

“İnsanlar bu mövzuya maraq göstərir və daha çox öyrənmək istəyirlər. İnsanlardan əsərlərimin onları eyni hobbi ilə məşğul olmağa sövq etdiyini bildirən mesajlar alanda sevinirəm və qürur duyuram”, - Fidan deyir.

Fidan başqalarına da köhnəlmiş əşyaları yeniləməyin yollarını öyrədir. İndi o, öz emalatxanasını açmağı planlaşdırır. İstəyir ki, insanlar köhnəlmiş əşyalardan yenilərini düzəltmək haqqında daha çox məlumat əldə edə bilsinlər.



NƏTİCƏ 4.1 BMT QURUMLARI

Food and Agriculture Organization of the United Nations · UNDP · UNFPA · unicef for every child · UNHCR · UN WOMEN

Qadınlar və qızlar üçün STEM Mentorluğu proqramının iştirakçıları Afaq Kərimli ( mentor, ayaq üstə durub) və Ləman Qasımova (şagird).
BMT-nin İnkişaf Proqramı /2022

# NƏTİCƏ 4.1
# GENDER BƏRABƏRLİYİNİN TƏMİN OLUNDUĞU CƏMİYYƏT

## Qadınlar və qızlar, o cümlədən diqqətdən ən çox kənarda qalanlar, onların ayrı-seçkilik və zorakılıqdan qorunmalasını təmin edən və həyatın bütün sahələrində iştirakı üçün  səlahiyyətlərini artıran təkmilləşdirilmiş milli mexanizmlərdən faydalanır

İqtisadi iştirak və imkanlar, təhsil səviyyəsi, sağlamlıq və sağ qalma, siyasi səlahiyyətlər kimi göstəriciləri nəzərə alan 2022-ci il Qlobal Gender Fərqi İndeksində Azərbaycan 0,687 balla 146 ölkə arasında 101-ci yer tutub.

Azərbaycanda gender bərabərsizliyinə təsir edən bir çox amillər var. Bunlara qadınların təhsil və məşğulluq imkanlarını məhdudlaşdıran zərərli sosial normalar daxildir. Gender əsaslı zorakılığın yayılması qadınların sağlamlığı, rifahı və müstəqilliyini ciddi şəkildə pozur. Bundan əlavə, milli qanunlar, siyasətlər və institusional mexanizmlərdəki boşluqlar qadınların hüquq və imkanlarını daha da məhdudlaşdırır, qadınların mobilliyinə və mirasın qeyri-bərabər bölüşdürülməsinə təsir göstərir.

Bu amillərin aradan qaldırılması cəmiyyətdəki münasibətlərə, qanunvericilik bazalarına və qadınların səlahiyyətlərinin artırılmasına çoxölçülü yanaşma tələb edir. BMT-nin Azərbaycandakı nümayəndəliyi gender əsaslı ayrı-seçkiliyin aradan qaldırılması, habelə qadınlar və kişilər üçün bərabər imkanların təmin edilməsi üçün tərəfdaşlarla işini davam edib.

BMT öz strateji fəaliyyətlərini gender əsaslı zorakılıq və ayrı-seçkiliyin aradan qaldırılması üçün effektiv hüquqi və siyasi çərçivələrin qurulmasına yönəldib. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyanın prosedurlarının daha yaxşı başa düşülməsi və Konvensiyanın Azərbaycanda icrasını dəstəkləmək üçün  milli maraqlı tərəflərin iştirakı ilə simulyasiya sessiyası keçirilib. Gender bərabərliyi üzrə Milli Fəaliyyət Planına yenidən baxılıb və hazırda təsdiqini gözləyir.

**Nəticə 4.1**
925,800 dollarlıq büdcədən 2022-ci ildə DİM-lər üzrə ayrılmış vəsait




2022-ci ildə Maliyyələşmə



## Gender əsaslı zorakılığa qarşı mübarizə

Gender əsaslı zorakılıq qurbanlarına dəstək xidmətlərini təkmilləşdirmək üçün gender əsaslı zorakılıqla bağlı yönləndirmə mexanizmləri barədə həm geniş əhali kütləsi, həm də xidmət təminatçılarını hədəfləyən bir sıra kommunikasiya məhsulları hazırlanıb və  və yayılıb. Azərbaycanda gender əsaslı zorakılığının qurbanları üçün




hazırda mövcud olan müdafiə və dəstək xidmətləri haqqında məlumat vermək üçün ilk onlayn yönləndirmə portalı istifadəyə verilib. Gender əsaslı zorakılıqla bağlı milli üçrəqəmli qaynar xəttinin təklif etdiyi bir sıra xidmətlərə hüquqi və psixoloji, habelə böhran müdaxiləsi və yönləndirmə dəstəyi əlavə edilib. Bu, gender əsaslı zorakılıq qurbanlarının həyatını xilas etmək üçün müdaxilə tələb edən halları Hökumətin diqqətdə saxlamasına kömək edir. Gender əsaslı zorakılığa məruz qalmış qadınlara dəstək xidmətləri göstərən sığınacaqlar üçün bir sıra standartlar və təlimatlar hazırlanıb. Bundan əlavə, yetkinlik yaşına çatmayanlara dair ədalət mühakiməsi ilə bağlı qanunvericilik təklifləri layihəsinə gender əsaslı zorakılıq qurbanlarının ehtiyaclarına cavab vermək üçün ədliyyə sektorunda qadınların işə götürülməsi məsələsi daxil edilib. Uşaqların Mühafizəsi üzrə pilot mexanizmdə uşaqlara qarşı gender əsaslı zorakılığının qarşısının alınması üçün etik protokollar öz əksini tapıb.

Gender əsaslı zorakılıq qurbanlarına dəstək mexanizmlərindən biri də Qadın Resurs Mərkəzlərində pulsuz hüquqi və psixosial dəstək təklif edən “təhlükəsiz məkanlar”dır. 2022-ci ildə 100 qurbana kömək etməklə, Sumqayıt Qadın Resurs Mərkəzi də ölkədə fəaliyyət göstərən digər doqquz mərkəzlə birlikdə bu təcrübəyə qoşulub. Hökumət tərəfdaşları ilə birgə keçirilən aylıq “açıq qapılar” və uzaq icma səfərləri cəmiyyətdə gender



Atalar düşərgəsində ailədəki ənənəvi rollar sınağa çəkilir.  BMT-nin Əhali Fondu /2022

əsaslı zorakılığa qarşı xidmətləri daha geniş şəkildə təbliğ etməyə imkan verib. Resurs mərkəzləri həmçinin hökumətin rəhbərlik etdiyi Uşaqlara və Ailələrə Dəstək Mərkəzləri ilə birlikdə reproduktiv sağlamlıq, selektiv abort və digər genderə həssas mövzular üzrə müntəzəm məlumat sessiyaları keçiriblər. Regionlarda gender əsaslı zorakılığın 235 qurbanı öz iqtisadi rifahını təmin etmək üçün peşə kurslarında iştirak edib.

## Ayrı-seçkilik yaradan gender normaları və təcrübələrinin aradan qaldırılması

BMT gender əsaslı ayrı-seçkiliyi və zorakılığı, gender əsaslı cinsi seçimə şərait yaradan gender normaları və digər zərərli təcrübələri aradan qaldırmaq üçün hökumət, vətəndaş cəmiyyəti, qadın və gənclər təşkilatları, icma üzvləri, media və özəl sektorla kommunikasiya və vəkillik kampaniyalarında iştirak edib.

Genderə uyğun məzmun və tədris üzrə layihə təhsil resurslarının (12 dərslik, 12 iş kitabı və 10 metodiki vəsait) nəzərdən keçirilməsi və müəyyən edilmiş boşluqların aradan qaldırılması üçün bir sıra tövsiyələr təqdim edib. Təhsil İnstitutu nəzərdən keçirilmiş III-IV siniflər üçün Azərbaycan dili və Riyaziyyat və V siniflər üçün Təbiət dərsliklərini indi sınaqdan keçirir. Bundan əlavə, kitab nəşriyyatları və seçilmiş məktəblərin pedaqoji heyətinə genderə uyğun məzmun və tədrislə bağlı təlimlərin keçirilməsi üçün bir qrup mütəxəssis hazırlanıb. Planlaşdırmada, siniflərin idarə edilməsində, məktəbdaxili qiymətləndirmədə və məktəblərdə əlverişli mühitin yaradılmasında genderə həssas yanaşmanı təmin etmək üçün gender məsələləri Məktəblərin Təkmilləşdirilməsi Planına inteqrasiya edilib.

Məsuliyyətli atalıq və eqalitar əsaslara dayanan ailə modeli konsepsiyası Azərbaycanda ilk dəfə Beynəlxalq Atalar Gününün qeyd edilməsi zamanı və Beynəlxalq Ailə Günündə təbliğ olunub. “Atalar düşərgəsi” və “Gənclər düşərgəsi” kimi təşəbbüslər gender stereotipləri və ayrı-seçkilik praktikaları, qadın hüquqları, gender əsaslı ayrı-seçkilik və digər mövzuların həllində kişilərin rolunu öyrənmək və bu barədə fikir mübadiləsi aparmaq üçün imkan yaradıb. Bundan əlavə, 480 ata və gələcək atalar Azərbaycanın səkkiz rayonunda təşkil olunmuş Atalar Məktəblərində məlumat sessiyalarından faydalanıblar. BMT ödənişli ata məzuniyyəti siyasətlərinin reallaşmasına və 2023-cü ildə qüvvəyə minməsi gözlənilən qanun dəyişikliyinə dəstək verib.

**UĞUR HEKAYƏSİ**

## Azərbaycanda atalar övladlarının gender bərabərliyi şəraitində böyüməsini təmin etmək üçün stereotipləri qırırlar



28 yaşlı gələcək ata Sahil Əliyev, Atalar Məktəbinə dərin kök salmış patriarxal  düşüncələrlə qoşulmuşdu: “Evdə, məktəbdə, işdə bizə öyrədirlər ki, kişi güclü olmalıdır. Yadımdadır, anam deyirdi ki, ailədə hər şeynən bağlı son sözü kişi deməlidir, haqlı olmasa belə”. Hər sessiyada fəal iştirak etməklə o, əvvəllər heç vaxt müzakirə etmədiyi mövzu ilə bağlı daha dərin məlumat əldə etdiyinə inanır. “Mən, gender, cinsiyyət və ailə münasibətləri haqqında danışırdım – bu mövzuları heç vaxt yad insanlarla açıq şəkildə müzakirə etməmişdim. Düzünü desəm, indi etiraf edirəm ki, keçmiş sevgiliмə qarşı zorakı davranmışam, onun bəzi mümkün imkanlara çıxışını məhdudlaşdırmışdım və geyim tərzinə dair qadağalar qoymuşdum. Ancaq mən Atalar Məktəbinin gender əsaslı zorakılıqla bağlı sessiyalarında iştirak edənə qədər bu barədə məlumatlı deyildim. Son səkkiz həftə ərzində bütün bu stereotiplərdən tamamilə qurtula bildiyimi deyə bilmərəm, amma əvvəlki davranışıma görə təəssüfləndiyimi əminliklə söyləyə bilərəm. İndi əminəm ki, bu məsələlərin bir çoxu üzərində düşünə bildiyim üçün həyat yoldaşıma empatiya və tam hörmətlə yanaşmaq üçün əlimdən gələni edəcəyəm.

Səkkiz həftəlik Atalar Məktəbi zamanı mütəxəssislər və digər natiqlər Azərbaycanda gender əsaslı ayrı-seçkilik və zorakılıqla bağlı bir sıra sessiyalar keçiriblər. Bununla yanaşı, iştirakçılara ailə planlaması və reproduktiv sağlamlıq, intim münasibətlər, abortlar, femisidlər, qadınların iştirakçılığı ilə bağlı məhdudiyyətlər və qadınların səlahiyyətlərinin artırılmasının faydaları anlayışlarını daha dərindən öyrənmək imkanı verilib.

BMT sosial mediada virtual “Gender Bərabərliyi Uğrunda Kişilər” platforması vasitəsilə dini icmaları əhatə edib və təxminən 40,000 insanı əhatə edib. Azərbaycanın 20 bölgəsində keçirilən icma əsaslı təlimlər və məlumat sessiyalarına 1,000-dən çox iştirakçı qatlıb. 300-dən çox gənc gender və din mövzularında “Kişilər gender bərabərliyi naminə danışır” sessiyalarından yararlanıb.

## Gənclərin səlahiyyətləndirilməsi

Qızların səsini eşitdirmək Beynəlxalq Qız Uşaqları Günü kampaniyasının şüarı idi. Gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması ilə bağlı maarifləndirmə kampaniyası ölkə üzrə 10,000 nəfəri əhatə edib. Bundan əlavə, əlverişsiz ailələr və icmalardan olanlar da daxil olmaqla, 12-17 yaşlı 22 qız qarşılaşdıqları çətinlikləri müzakirə etmək üçün dövlət qurumları və özəl şirkətlərdə qərar qəbul edən şəxslərlə görüşüb.

Ölkə üzrə 40-dan çox kollec və məktəbdən olan 1,000-dən çox gənc gender əsaslı zorakılıq və ayrı-seçkilik mövzusunda müzakirələrdə iştirak edib.

5,000-dən çox yeniyetmə qıza reproduktiv sağlamlıq, zorakılıq və zərərli təcrübələrin qarşısının alınması ilə bağlı məlumat sessiyaları keçirilib. Ənənəvi və sosial media kanalları da daxil olmaqla səkkiz rayonda ictimai maarifləndirmə kampaniyaları qızların cəmiyyətdəki dəyərini təbliğ edib.

BMT Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) ilə birgə 11-17 yaşlı 120 qızın iştirak etdiyi “3x3 Qızlar” futbol turniri vasitəsilə onların idmanda iştirakını təşviq edib.

Qızlar STEAM-də: BMT 2022-ci ildə STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət, Riyaziyyat), İKT və rəqəmsal savadlılıq üzrə qızların bacarıq və istedadlarını artırmaq təşəbbüslərini davam etdirib. Bu fəaliyyətlərdən 125 qız faydalanıb. Azərbaycanın beş rayonunda ümumtəhsil məktəblərdə fəaliyyət göstərən STEAM Mərkəzlərində Qızlar üçün Mühəndislik Mərkəzləri yaradılıb. STEM mentorluq proqramı 2022-ci ildə 300 qadın təlimçi və təlim iştirakçısını cəlb edib. Bu da əvvəlki illə müqayisədə on dəfə çoxdur.

**UĞUR HEKAYƏSİ**

## Azərbaycanda daha çox qadın və qız elmə cəlb olunur

“Qadınlar STEM-də mentorluq proqramı sayəsində STEM sahəsində fəaliyyətim və bu sahədə ünsiyyətdə olduğum insanların sayı artıb. Mentorlarımın dəstəyinin özümə inamımın artmasında böyük rolu olub”, - biologiya fakültəsinin məzunu, təlim iştirakçısı Səbinə Məmmədova deyir. Səbinə, bu layihədə iştirakının karyerası üçün ən vacib addımlardan biri olduğunu hesab edir.

2021-ci ildə mentorluq proqramına qoşulan Səbinə 75-dən çox ölkədən 330 nümayəndə arasında Azərbaycanı təmsil edən UNESCO -nun Qlobal Məktəblər Proqramı üçün Qlobal Məktəblər üzrə Vəkil seçilib, Microsoft İnnovativ Təhsil (MIT) Eksperti (2021-2022) adına layiq görülüb. Theirworld təşkilatı da onu Qlobal Gənclik Səfiri seçilb. Hazırda isə Səbinə EU4Youth Alumni Network-da fəal iştirak edir. O, Avropa Azərbaycan Məktəbində Elm müəllimi, “STEM mərkəzində” köməkçi müəllim, elmi şöbədə isə laborant vəzifələrində çalışır.

Səbinənin digər gənc qadınlara tövsiyəsi belədir: “STEM-də öyrənməyə və böyüməyə qərarlı olun! Bu sahədə çalışan peşəkarlarla ünsiyyət qurun və onlardan öyrənin. Bu, hədəflərinizə daha tez çatmağa kömək edəcək!”



## 2.3. Tərəfdaşlığa dəstək və 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi

### Dayanıqlı maliyyələşdirmə

Azərbaycan hökuməti ölkənin DİM-lərin maliyyələşdirilməsi gündəliyinə müsbət təsir göstərə biləcək bir sıra strateji təşəbbüslərə başlayıb. Azərbaycanda dövlət xərclərinin səmərəliliyini, strateji yönümlülüyünü və şəffaflığını gücləndirmək üçün Ortamüddətli Xərclər Çərçivəsi proqramı çərçivəsində islahatlara başlanılıb. “2022-2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyası” 2026-cı ilə qədər əsas fəaliyyət göstəriciləri və hədəfləri ilə monitorinq və qiymətləndirmə çərçivəsini təqdim edir. Bu göstərici və hədəflər DİM hədəfləri ilə əlaqələndirilib. Azərbaycan Mərkəzi Bankının hazırladığı dayanıqlı maliyyənin yol xəritəsi üzrə fəaliyyət planı mühüm hadisə sayılır. Bu sənəd dayanıqlı inkişaf gündəliyini dəstəkləmək üçün önəmli addımdır.

2020-ci ildən etibarən Azərbaycan dayanıqlı inkişaf istiqamətində maliyyəni idarə və səfərbər etmək, heç kəsi kənarda qoymayan inklüziv və yaşıl inkişaf üçün ilk İnteqrasiya olunmuş Maliyyələşdirmə Çərçivəsinin hazırlanmasına başlayıb. BMT-nin Birgə DİM Fondunun dəstəyi ilə Hökumət İnkişaf Maliyyəsinin Qiymətləndirilməsini yekunlaşdırıb və 2022-ci ildə DİM üzrə İnvestor Xəritəsi və Təsirli İnvestisiya Ekosisteminin Tədqiqatına başlayıb. Tədqiqatlar özəl kapitalın DİM hədəflərinə nail olması üçün investisiya imkanlarını və yönəldilə biləcəyi sahələri müəyyənləşdirməyə kömək edir.




Oxumaq üçün tıklayın

BMT Bakı FINTEX 2022 sammiti çərçivəsində keçirilən “Dayanıqlılıq və Bank sektoru: ətraf mühit, sosial və idarəetmə” konfransında dayanıqlı inkişafı sürətləndirən banklar, sığortaçılar və investorları birləşdirən BMTƏMP Maliyyə Təşəbbüsü adlı şəbəkəni təşviq etmək üçün özəl sektorun maraqlı tərəfləri ilə fəal əməkdaşlıq edib. Azərbaycanda 30 bank rəhbərinə Məsuliyyətli Bankçılıq Prinsipləri təqdim edilib. Bu sənəd onları öz əsas strategiyalarını, qərarların qəbulu prosesini, kreditləşdirməni və investisiyalarını DİM-lərə və Paris İqlim Sazişi kimi beynəlxalq müqavilələrə uyğunlaşdırmaq üçün əməli addım atmağa təşviq edir.

BMT və Azərbaycan Sahibkarlığın İnkişafı Fondu arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, Fondun dayanıqlılıq siyasəti nəzərdən keçirilib və Azərbaycan Banklar Assosiasiyası ilə kommersiya banklarının Məsuliyyətli Bankçılıq üçün ətraf mühit, sosial və idarəetmə standartları və prinsiplərinin təkmilləşdirilməsi perspektivləri barədə ikitərəfli müzakirələr aparılıb.

BMT İlk dövlət büdcəsinin icmalını Uşaqlar üçün Dövlət Maliyyəsi təşəbbüsünə giriş nöqtəsi kimi dərc edib. İcmalda səhiyyə, təhsil və sosial müdafiə sektorlarında 2018-2022-ci illər üzrə məlumat toplusu əsasında milli büdcənin uşaqların ehtiyaclarına nə dərəcədə cavab verdiyi araşdırılır.

## Yaşıl transformasiya, məlumatlar və sülh mövzularında DİM dialoqları

DİM-in sürətləndirilməsi gündəliyinə dəstək olaraq, BMT və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası 2022-ci ildə siyasətlərin müzakirəsi üçün çoxtərəfli yüksək səviyyəli platforma olan DİM-lər üzrə Dialoq seriyasına başlayıb. Yaşıl Transformasiyaya həsr olunmuş birinci dialoq 2022-ci ilin noyabr ayında baş tutub və ölkənin yaşıl inkişaf göstəriciləri üzrə tərəqqisini nəzərdən keçirib. Dialoq zamanı səslənən öhdəliklərə əsaslanaraq, yaşıl inkişafın tərəqqisinə dair təhlilin xülasəsi və bir sıra siyasət tövsiyələrini təqdim edən icmal hazırlanıb.

BMT həmçinin Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası və Dövlət Statistika Komitəsi ilə birlikdə Azərbaycan üçün DİM məlumatlarının mövcudluğu və DİM-lərin tərəqqisində boşluqlar üzrə maraqlı tərəflərlə məsləhətləşmələrə başlayıb. Qlobal və milli məlumat bazaları üzrə uyğunsuzluqlar və metodoloji problemlərin aradan qaldırılması, məlumatın olmadığı göstəricilər üçün məlumatların toplanmasının təkmilləşdirilməsi və göstəricilər üzrə real tərəqqinin əldə edilməsi üçün konkret tədbirlər müəyyən edilib.

Qadınlar və gənclərin səlahiyyətlərinin artırılması və onların sülhdə roluna həsr olunmuş qurumlararası səylər vasitəsilə Cənubi Qafqaz ölkələri üçün DİM-lər üzrə regional dəyirmi masa keçirilib. Üç ölkənin vətəndaş cəmiyyəti nümayəndələri öz təcrübələrini və qabaqcıl nümunələrini bölüşüblər. Cənubi Qafqaz üçün Sülh İnnovasiyaları Platforması gənc vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirərək, regionda dezinformasiyanın yayılmasına qarşı mümkün cavab tədbirlərini araşdırmaq, sülh quruculuğuna yeni yanaşmaları müzakirə etmək və birgə yaşayışı təşviq edən narrativləri hazırlamaq üçün rəqəmsal sülh quruculuğu təşəbbüslərinin həyata keçirilməsini dəstəkləyib.

## Korporativ dayanıqlılıq

Azərbaycan 2022-ci ildə BMT-nin Qlobal Sazişi üçün pilot ölkələrindən biri seçilib. Bu, BMT-nin korporativ dayanıqlılığı təşviq etmək məqsədilə həyata keçird-iyi ardıcıl fəaliyyətlərlə əlaqədar baş verib. 2022-ci ildə BMT Qlobal Sazişinə 14 yeni üzv qoşulub.

Həmçinin 2022-ci ildə 10 yeni şirkət gender bərabərliyi mövzusunda korporativ göstərici üçün əsas vasitə olan Qadınların Səlahiyyətləndirilməsi Prinsiplərinə (QSP) imza atıb. BMT bu prinsiplərin şirkət siyasətlərinə və əməliyyatlarına uğurlu inteqrasiyasını təmin etmək üçün Gender Boşluğu Təhlilləri və QSP üzrə Fəaliyyət Planlarının hazırlanmasında texniki yardım göstərib.

Biznes və insan hüquqları da BMT-nin Ombudsman ofisi ilə əməkdaşlığının gündəliyində olub. Əsas məqsəd sosial və iqtisadi hüquqların inkişafı, iş yerlərində bərabərliyin təşviqi və biznes mühitində ədalət mühakiməsinə çıxışı genişləndirmək üçün əsas probemləri və tədbirləri müəyyən etmək olub. Dinamik və qabaqcıl biznes sektorunu inkişaf etdirən siyasətləri və tənzimləyici çərçivələri aydınlaşdırmaq üçün Danimarka İnsan Hüquqları İnstitutu ilə tərəfdaşlıq yaradılıb. Biznes və İnsan Hüquqları üzrə Beynəlxalq Biznes Forumu milli və beynəlxalq insan hüquqları institutları, biznes qurumları və digər maraqlı tərəflərin 140 nümayəndəsi arasında təcrübə mübadiləsi üçün imkan yaradıb. Bundan əlavə, 25 hüquq mütəxəssisi, hüquqşünas və hüquq müdafiəçisi biznes fəaliyyəti ilə bağlı insan hüquqlarına mənfi təsir riskinin qarşısının alınması və aradan qaldırılması, habelə insan hüquqlarına hörmətlə bağlı korporativ məsuliyyətin təşviqi üzrə bacarıqlara yiyələnib.

Bundan əlavə, hüquq ekspertləri, hüquqşünaslar, tədqiqat mərkəzləri və biznes və insan hüquqları məsələləri üzrə müdafiəçilər üçün "Biznes və İnsan Hüquqları üzrə Rəhbər PrinsiplərinGender Parametrləri" və "Münaqişənin təsirinə məruz qalan mühitdə bizneslər tərəfindən insan hüquqları üzrə dərin ekspertiza" adlı təlimat kitabçaları Azərbaycan dilində nəşr edilib.

## 2.4. BMT-nin birlikdə daha çox və daha yaxşı çalışaraq əldə etdiyi nəticələr: BMT-nin aktuallığı, effektivliyi və səmərəliliyi

BMT-nin Azərbaycanda olmasının 30-cu ildönümü sülh, iqlimlə bağlı fəaliyyət, gənclərin gündəliyi və insan hüquqlarını təşviq edən birgə kampaniyalar və tədbirlər vasitəsilə BMT qurumları arasında əməkdaşlığı inkişaf etdirmək üçün dəyərli imkan yaradıb. Müxtəlif qurumlararası qruplar BMT-nin fəaliyyətlərini planlaşdırmaq, monitorinq etmək və hesabat vermək, həmçinin ölkədə və xaricdə olan qurumlar arasında gələcək əməkdaşlığı və əlaqələndirməni təşviq etmək üçün BMT qurumlarının zəngin təcrübəsini bir araya gətirib.

## Birgə təcrübəyə əsaslanaraq

BMT 2022-ci ildə bir neçə analitik sənədin hazırlanması üçün texniki dəstək göstərib. Ukraynadakı müharibənin və Rusiyaya tətbiq edilən




BMT günü əməkdaşlar və tərəfdaşların iştirakı ilə qeyd olunub. BMT-nin İnformasiya Mərkəzi /2022

sanksiyaların Azərbaycan üçün potensial sosial-iqtisadi nəticələrini qiymətləndirmək məqsədilə Qurumlararası İşçi Qrup yaradılıb. Hesabatda böhranın mənfi təsirinin azaldılması və yaranan imkanlardan istifadə ilə bağlı BMT qurumları və milli tərəfdaşlar üçün tövsiyələr öz əksini tapıb. Digər Qurumlararası İşçi Qrup isə ilkin Ölkə üzrə Ümumi Təhlilin (CCA) gender aspektini daha da təkmilləşdirmək üçün BMT-nin Gender Tematik Qrupunun yaxından iştirakı ilə CCA-nın illik yenilənməsini həyata keçirilib. 2022-ci ildə BMT UNCT-SWAP Gender Bərabərliyi Göstəriciləri üzrə illik tərəqqinin qiymətləndirilməsini həyata keçirib. Məqsəd BMT-nin Ölkə üzrə idarə Heyətinin fəaliyyət planında əks olunmuş minimum göstəricilərə dair tələblərin icrasını, o cümlədən qiymətləndirmə kartında qeyd olunmuş işlərin yerinə yetirilməsini qiymətləndirmək idi.

## Normativ gündəm üçün birgə fəaliyyət: insan hüquqları, gender bərabərliyi və vətəndaş cəmiyyəti ilə iş

2022-ci ildə BMT-nin İnsan Hüquqları Tematik Qrupu Ombudsman Ofisi ilə insan hüquqlarının ümumbəşəri dəyərlərini, gender bərabərliyi prinsiplərini və ölkədə qanunun aliliyinin bütün aspektlərini təşviq etmək üçün birgə işçi qrupunun yaradılması məqsədilə Anlaşma Memorandumu imzalayıb. 2022-ci ilin fəaliyyət planında BMT-nin insan hüquqları mexanizmləri və institusional potensialın gücləndirilməsi ilə bağlı tövsiyələrinə əməl olunmasının monitorinqi prioritet təşkil edib. İnsan Hüquqları Tematik Qrupu Vəkillər Kollegiyası və Ombudsmanın regional ofisləri ilə birlikdə Bakıda və ətraf rayonlarda 500-dən çox insanı əhatə edən həssas qrupların üzvləri üçün aylıq ödənişsiz hüquqi yardım kampaniyalarını təşkil edib. Qrup Ombudsman Aparatı və Bakı Dövlət Universitetinin Hüquq Fakültəsi ilə birgə İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsinin 75-ci ildönümünü qeyd etmək üçün bir il davam edən kampaniyaya başlayıb və insan hüquqlarına dair təhsil resursları və nəşrlərinə çıxışı təmin edən və tələbələr tərəfindən idarə olunacaq yeni onlayn platforma olan www.humanrightsday.az saytını istifadəyə verib.

Gender Əsaslı Zorakılığa Qarşı əhəmiyyətli 16 Gün-lük Fəallıq kampaniyası Azərbaycanın 16 rayonun-da keçirilib və əksəriyyəti 16-30 yaş arasında olan 2,700-ə yaxın insanı (70%-i qadın və qızlar) əhatə edib. Mesajların daha geniş auditoriyaya çatmas-ını təmin etmək üçün kampaniyada 15 bloqqer, rəssam, kinorejissor, psixoloq və sosioloq iştirak edib. Bu ilki kampaniya gender əsaslı zorakılığı və ayrı-seçkiliyi davam etdirən sosial normaları qab-ardaraq, xüsusilə də diqqətdən daha çox kənarda qalan insanlar arasında gender əsaslı zorakılığın qarşısının alınmasına dair məlumat yayıb.
BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətləndirilməsi üzrə Yüksək Səviyyəli Vəkillik Qrupu birgə televiziya müsahibələri, Qadın Resurs Mərkəzlərinə səfərlər, habelə birgə konfranslar və seminarlar vasitəsilə

gender əsaslı zorakılıq və qadınların iqtisadi səlahiyyətlərinin artırılması kimi problemlərə diqqət çəkib. Qadınlar, Sülh və Təhlükəsizlik (QST) üzrə Milli Fəaliyyət Planının qəbulu və həyata keçirilməsinin mümkün üsulları, qadınların vasitəçilik və təhlükəsizlik məsələlərində rolu 2022-ci ildə milli siyasət dialoqu və QST ilə bağlı beynəlxalq konfrans də daxil olmaqla yüksək səviyyəli tədbirlərin və potensialın gücləndirilməsi proqramlarının əsas mövzusu olub.

2022-ci ildə BMT və QHT-lərə Dövlət Dəstəyi Agentliyi arasında diqqətdən daha çox kənarda qalan insanları təmsil edən və dəstəkləyən dinamik və çoxşaheli vətəndaş cəmiyyətinin bacarıqlarını artırmaq məqsədilə Niyyət Bəyannaməsi imzalanıb. BMT 50 vətəndaş cəmiyyəti təşkilatı (VCT) üçün iqlim dəyişikliyinin təsirinin azaldılması və uyğunlaşma planları, habelə icma əsaslı iqlim siyasəti layihələri, siyasətlərin təhlili və formalaşdırılması, kommunikasiya, vəkillik və alyansların yaradılması mövzularını əhatə edən təlimlər və fərdi mentorluq proqramını dəstəkləyib. QHT-lərə Dövlət Dəstəyi Agentliyi bu proqramı təkrarlamaqla onun effektini daha da artırıb.

### Güclü tərəfdaşlığın 30 ili

Azərbaycanın BMT-yə üzvlüyünün 30-cu ildönümünü qeyd etmək üçün 2 mart 2022-ci il tarixində il ərzində davam edən kampaniyaya start verilib. 30 gün ərzində şəhərin ən gur yeri olan Bakı bulvarında BMT-Azərbaycan tərəfdaşlığının tarixini əks etdirən yüz təsirli fotoşəkil nümayiş etdirilib. BMT Gününü qeyd etmək üçün təşkil olunmuş Beynəlxalq Xeyriyyə Bazarında toplanan vəsait əlilliyi olan uşaqlar üçün psixoloji dəstək üzrə layihənin icrasına yönəlib. BMT gününü qeyd etmək üçün üç min ağacın əkilməsi planetimizi qorumaq və hamı üçün dayanıqlı gələcək qurmaq üçün hərəkətə keçməyin vacibliyini vurğulayan güclü simvola çevrildi.

“BMT-Azərbaycan – Dayanıqlı İnkişaf Məqsədlərinə Doğru” televiziya proqramının yayımı 2022-ci ildə başlayıb. BMT və Hökumətin yüksək səviyyəli təmsilçiləri bu proqramda nailiyyətləri, çağırışları və DİM-lərə nail olmaq üçün birgə fəaliyyəti müzakirə edib.

“BMT Azərbaycanın simaları” adlı sosial media kampaniyası çərçivəsində BMT-nin 30 əməkdaşı öz təcrübəsi və onları bu təşkilatda çalışmağa stimul verən səbəblərdən danışıb.

**BMT qurumları üzrə (ABŞ dolları ilə)**




## 2.5. Maliyyə məsələlərinin xülasəsi və resursların səfərbər olunması

### 2.5.1. Maliyyə məsələlərinin xülasəsi

**Nəticələr üzrə (ABŞ dolları ilə)**



**BMT qurumları üzrə (ABŞ dolları ilə)**




## 2.5.2. Resursların səfərbər olunması və maliyyələşdirmənin keyfiyyəti

BMT tərəfdaşlıq və resurs səfərbərliyi üzrə bilik mübadiləsi üçün platforma rolunu oynayan BMT-nin Tərəfdaşlıq və İnkişaf üzrə Maliyyə İşçi Qrupu vasitəsilə tərəfdaşlığın qurulması və resursların səfərbər edilməsinə birgə yanaşmasını təkmilləşdirib.

BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsinin (UNSDCF) prioritet sahələri və nəticələrinin həyata keçirilməsini dəstəkləmək üçün ardıcıl tərəfdaşlıqların qurulmasına dair strateji təlimatları təmin edən Tərəfdaşlıq və Resursların Səfərbərlik Strategiyası və onu müşayiət edən 2023-cü ilin Fəaliyyət Planı hazırlanıb. Strategiya maliyyələşdirmə çərçivəsinə və ölkə kontekstinin təhlilinə əsaslanaraq UNSDCF-in maliyyə çatışmazlığını aradan qaldırmaq və çoxtərəfli tərəfdaşlıqları sürətləndirmək yollarını müəyyənləşdirməyə kömək edəcək.

Bu Strategiya birgə resursların səfərbər edilməsi və BMT miqyasında tərəfdaşlıqlar üçün daha böyük işbirliyinə doğru mühüm addımdır. Beynəlxalq inkişaf tərəfdaşları, özəl sektor, hökumət, vətəndaş cəmiyyəti və akademik dairələrlə müxtəlif əlaqələndirmə üsullarına müraciət edərək, Strategiya illik fəaliyyət planlarında BMT-nin prioritetləşdirdiyi qısa və ortamüddətli dövr üçün konkret tədbirləri müəyyənləşdirir.



BMT Günü və BMT-Azərbaycan tərəfdaşlığının 30-cu ildönümünü qeyd etmək üçün 3,000 ağac əkilib
BMT-nin İnformasiya Mərkəzi/2022

# 3 | BMT-NİN 2023-CÜ İL ÜÇÜN PRİORİTETLƏRİ

Aİ və Dünya Bankı ilə birgə həyata keçirilən Bərpa Ehtiyaclarının Birgə Qiymətləndirilməsi 2023-cü ildə icra olunmağa başlayacaq. Bu Qiymətləndirmə BMT-nin mina fəaliyyəti və məcburi köçkünlərin dayanıqlı qayıdışına dəstək də daxil olmaqla, hökumətin münaqişədən zərər çəkmiş ərazilərdə apardığı insan mərkəzli və çox sektorlu bərpaya dəstəyini genişləndirmək üçün səylərinin istiqamətlərini müəyyənləşdirəcək.

COVID-19-a qarşı mübarizədən mühüm dərslər çıxaran BMT ilkin səhiyyə, təhsil və sosial müdafiə sistemlərinin gücləndirilməsində Hökumətə dəstək verəcək.

BMT MKOS-lar, gənclər, qeyri-rəsmi sektorda çalışanlar və qazancı risk altında olanların, o cümlədən kənd və münaqişədən zərər çəkmiş ərazilərdə yaşayanların iqtisadi bərpasına dəstəyini davam edəcək.

Bundan əlavə, hökumətin iqtisadi şaxələndirməni sürətləndirmək səylərini dəstəkləmək üçün BMT prioritet olan qeyri-neft sektorlarına diqqət yetirməklə birgə iqtisadi siyasət üzrə məsləhət və analitik dəstəyini davam etdirəcək.

Alternativ enerji mənbələrindən istifadənin gücləndirilməsi və biomüxtəlifliyin qorunması da daxil olmaqla İqlim Dəyişikliyi üzrə Paris Sazişi çərçivəsində Azərbaycanın götürdüyü öhdəlikləri yerinə yetirməsini dəstəkləmək üçün BMT Milli Uyğunlaşma Planı prosesini və yenilənmiş Milli Səviyyədə Müəyyən edilmiş Töhfənin yekunlaşdırılmasına kömək edəcək.

BMT vətəndaş cəmiyyəti və digər sektorlardakı tərəfdaşlarla işləyərək, Qadınlar, Sülh və Təhlükəsizlik üzrə Milli Fəaliyyət Planını yekunlaşdırmaq və qəbul etmək üçün Hökuməti dəstəkləməyə davam edəcək.

BMT genişləndirilmiş tərəfdaşlıqlar vasitəsilə DİM məlumatlarının toplanması və təhlilini təkmilləşdirmək üçün Hökumətə birgə dəstək verəcək.

Bu və digər səylər vasitəsilə BMT Azərbaycanda milli inkişaf prioritetlərini dəstəkləməyə və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində irəliləyişi sürətləndirməyə davam edəcək.

UNITED NATIONS
AZERBAIJAN

BMT-nin Rezident Əlaqələndiricisinin
Ofisi BMT-nin 50 illiyi küçəsi, 3 AZ 1001
Bakı, Azərbaycan

Tel.: (+99412) 4989-888
www.azerbaijan.un.org